# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

4 mart 2025-ci il, çərşənbə axşamı
№ 039 (6867)
Qiymәti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Əfv gözlənilir

## Müvafiq komissiya müraciətləri araşdırır...

Bax səh. 2

# Addım-addım qayıdış hədəfinə doğru

## Qərbi Azərbaycan İcmasının qayıdışla bağlı dialoq çağırışlarına növbəti beynəlxalq dəstək



Bax səh. 3

# Bizi birləşdirən dəyər...

Bax səh. 4

## Fransa sülhə qarşıdır

Məlumdur ki, bəşəriyyətin kolonializm tarixinin qanlı cinayətlərinin çoxu məhz Fransa tərəfindən törədilib. Fransanın fəal surətdə məşğul olduğu qul ticarəti insanlığın ən utancverici səhifələrindən biridir. Milyonlarla insan bu ölkənin qul siyasətinin qurbanı olub. Müstəmləkəçi Qərb ölkələri demokratiyanı və insan hüquqlarının qorunmasını özlərinin "fundamental prinsipləri" kimi bəyan etsələr də, Afrikada, Yaxın Şərqdə, Latın Amerikasında neokolonializmi davam etdirməklə insan hüquq və azadlıqlarına, ümumiyyətlə, məhəl qoymurlar. Xüsusilə, Fransa öz əsarətində saxladığı xalqların suverenliyinin məhdudlaşması, yeraltı və yerüstü sərvətlərinin talanması ilə yanaşı, fundamental insan hüquqlarının tapdanmasını ən ağır təzahürlər kimi adiləşdirərək dövlət siyasətinə çevirib. Neokolonializm siyasətində Fransa ən pis nümunə ortaya qoyur. Hazırda 13 dənizaşırı ərazini müstəmləkəsi kimi idarə edən, həmçinin dünyanın müxtəlif qitələrində yerləşən keçmiş müstəmləkələrinin daxili işlərinə qarışan Fransa beynəlxalq təşkilatların və müstəqillik uğrunda mübarizə aparan xalqların uzun illərdir tələblərinə baxmayaraq, neokolonializm siyasətini davam etdirir. Fransız imperiyası əsrlər boyu Karib dənizi, Sakit okean və Afrikada geniş müstəmləkələr yaradıb və bu ərazilərdə öz idarəçiliyini gücləndirib.

Nə qədər paradoksal olsa da, bu gün Fransanın bəzi rəsmi şəxsləri Azərbaycanı guya onların daxili işlərinə qarışmaqda və dənizaşırı ərazilərdə müxtəlif fəaliyyətlərdə "ittiham" edirlər. Belə iddialarla bugünlərdə Fransanın dənizaşırı ərazilər naziri Manuel Vals da çıxış edib. Vals, həmçinin Cənubi Qafqazda real vəziyyəti də təhrif edib. Azərbaycanın Xarici İşlər Nazirliyi isə fransız nazirin iddialarının əsassız olduğunu bəyan edib. Nazirliyin mətbuat katibi Ayxan Hacızadə bildirib ki, iflasa uğramış xarici siyasətindən dərs çıxarmaq əvəzinə, ölkəmizi əsassız iddialarla günahlandırmaqla düşdüyü vəziyyətdən ictimai diqqəti...

Bax səh. 4

## Ombudsmanın illik məruzəsi...

### Parlamentin İnsan hüquqları komitəsində müzakirə olunub



Bax səh. 4

## Avropa "yenidənqurma" yolunda...

Martın 2-də baş tutan London sammiti Aİ üçün xüsusi əhəmiyyət kəsb edir. Dünənə qədər proseslərin arxasınca gedən Avropa artıq özünün müstəqil siyasi və hərbi xəttini yaratmağa çalışır. Bunun üçün isə, "köhnə qitə" ilk növbədə özünün hərbi potensialını inkişaf etdirməlidir. Qeyd edək ki, Avropa Komissiyasının (AK) rəhbəri Ursula fon der Leyen London sammitindəki müzakirələr zamanı deyib ki, Ukraynanın təhlükəsizlik zəmanətinə ehtiyacı var. AK rəhbəri Avropanı yenidən silahlandırmaqla bağlı çağırış edib...

Bax səh. 6

## Məqsədimiz sərnişinlərin təhlükəsizliyini təmin etməkdir

**- Maynisə xanım, niyə məhz bu sənəti seçdiniz?**

- Aviasiya mənim üçün bir həyat tərzidir, hansı ki, özündə yüksək məsuliyyət, professionallıq və komandada işləmək bacarığını birləşdirir. Həmişə sadəcə səyahət etmək yox, səyahətlərin insanlar üçün təhlükəsiz və komfortlu keçməsini istəmişəm, təyyarə bələdçisinin işi, sərnişinlərə...

Bax səh. 7

## Müqavilə imzalanmadı

Kiyev ilə Vaşinqton arasında hələ fevralın 25-də Ukraynanın nadir torpaq minerallarının çıxarılmasına dair ikitərəfli sazişin şərtləri razılaşdırılsa da, müqavilə imzalanmadı. Bu barədə Ağ Evdən "Reuters" agentliyinə bildirilib. Qeyd olunub ki, ABŞ prezidenti razılığa gəlməyi istisna etmir, sadəcə, Ukrayna konstruktiv danışıqlara hazır olmalıdır.

Qeyd edək ki, Ukrayna liderinin ABŞ-a səfərinin səbəbi kimi nadir torpaq metalları üzrə sazişin imzalanması göstərilirdi. ABŞ-ın maliyyə naziri Skott Bessent Ukrayna ilə iqtisadi tərəfdaşlığı müzakirə etmək üçün fevralın 13-də Kiyevə gəlmişdi və "tərəfdaşlıq sazişi"nin ilk layihəsi rəsmi Kiyevə təqdim olunmuşdu. Müqavilə ilə bağlı müəyyən müzakirələr aparılsa da, sonradan bir sıra şərtlər haqda razılıq əldə edildi.

Lakin Tramp-Zelenski görüşü zamanı liderlər yüksəldilmiş tonlardan istifadə edərək Rusiyanın Ukraynadakı müharibəsini və ona son qoymaq imkanlarını müzakirə etməyə başlayıblar. Vladimir Zelenski təhlükəsizlik zəmanəti olmadan atəşkəslə razılaşmaqdan imtina etdi və Donald Tramp onu ABŞ-ın mövqeyinə hörmətsizlikdə və nankorluqda ittiham etdi. ABŞ prezidenti Zelenskinin ritorikasını və davranışını hörmətsizlik kimi qəbul edib. "Fox News" xəbər verir ki, Tramp Zelenskidən Ağ Evi tərk etməsini istəyib. Kanalın müxbiri Sandra Smit "Telegram" kanalında yazıb: "Prezident Tramp Zelenskidən getməsini xahiş edib...".

Görüşlə bağlı beynəlxalq ekspertlər, xüsusilə Qərb siyasətçiləri birmənalı fikirdə deyillər. Bir qisim mübahisələrin arxasında başqa məsələlərin dayandığına işarə vurur - belə ki, bu müqavilə həm də atəşkəsə aparan yol kimi qeyd olunurdu. Bildirilir ki, Ukrayna prezidenti ABŞ-ın atəşkəs şərtləri ilə razı olmadığı üçün müqavilə məsələsi də reallaşmayıb. Ukrayna prezidentinin...

Bax səh. 6

## "Avropa Plus" qrupu yaradılır?



Bax səh. 5

## Dünyanın yeni rəqəmsal paytaxtı

Bax səh. 5

## ABŞ NATO-nu tərk edərsə...




Bax səh. 7

# Münasibətlərimizin yaxınlığı tarix boyu dəfələrlə sübut olunub...

## Azərbaycan və Qazaxıstan sosial-iqtisadi inkişaf sahəsində yaxşı göstəricilər nümayiş etdirən qardaş dövlətlərdir

### Prezident İlham Əliyev Qazaxıstanın Baş naziri Oljas Bektenovu qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Qazaxıstan Respublikasının Baş naziri Oljas Bektenovu qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı bir çox sahələri əhatə edən münasibətlərimizin dinamik inkişafından məmnunluğunu bildirərək, Prezident Kasım-Jomart Tokayevlə həm Azərbaycanda, həm də Qazaxıstanda mütəmadi görüşlərini xatırladı. Qazaxıstan Prezidentinin ötən il Azərbaycanda keçirilən COP29-da iştirakına görə bir daha minnətdarlığını bildirən Prezident İlham Əliyev dedi ki, bu, Qazaxıstanın ölkəmizlə həmrəyliyini nümayiş etdirib, həmçinin konfransın uğurla yekunlaşmasına öz töhfəsini verib.

Dövlətimizin başçısı COP29-da bir sıra vacib məsələlərin razılaşdırıldığını, eyni zamanda, ölkələrimizi daha da yaxınlaşdıracaq layihələrin formalaşdırıldığını qeyd etdi.

Prezident İlham Əliyev Qazaxıstan Baş nazirinin ölkəmizə səfəri zamanı vacib layihələrin ətraflı müzakirə olunacağına, əldə edilmiş razılıqların həyata keçiriləcəyinə və bütün istiqamətlər üzrə gələcəkdə də sıx əməkdaşlığın aparılacağına ümidvarlığını bildirdi.

Xalqlarımızın qardaş xalqlar olduğunu deyən dövlətimizin başçısı vurğuladı ki, bu, qarşılıqlı münasibətlərimizin tarixi boyu dəfələrlə sübut olunub.

Azərbaycanın və Qazaxıstanın sosial-iqtisadi inkişaf sahəsində yaxşı göstəricilər nümayiş etdirən qardaş dövlətlər olduğunu söyləyən Prezident İlham Əliyev beynəlxalq arenada, bölgəmizdə və daha geniş regionda ölkələrimizin vacib roluna toxundu.

Qəbula görə dövlətimizin başçısına minnətdarlığını ifadə edən Oljas Bektenov Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Azərbaycan Prezidenti salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Kasım-Jomart Tokayevə çatdırmağı xahiş etdi.

Qazaxıstanın Baş naziri dedi ki, Azərbaycan Prezidentinin də vurğuladığı kimi, ölkələrimiz arasında əlaqələr inkişaf edir və o, bu məsələdə Azərbaycan və Qazaxıstan prezidentlərinin etimada əsaslanan münasibətlərinin rolunu qeyd etdi.

Əlaqələrimizin potensialına toxunan Oljas Bektenov bildirdi ki, Qazaxıstan və Azərbaycan hökumətləri hər iki ölkənin prezidentləri arasında əldə olunmuş razılaşmaların həyata keçirilməsi üçün səy göstərirlər. O, bu xüsusda dövlət başçılarının tapşırıqlarına uyğun olaraq, Transxəzər muldimodal nəqliyyat marşrutunun inkişafı üzrə fəal iş apardıqlarını dedi və bu marşrutla yük axınının ötən il 60 faiz artdığını diqqətə çatdırdı.

Söhbət zamanı hərtərəfli əməkdaşlığımızın inkişafından məmnunluq ifadə olundu, son üç ildə ölkələrimiz arasında illik ticarət dövriyyəsinin təxminən 3 dəfə artdığı, nəqliyyat dəhlizləri üzrə yüklərin, o cümlədən tranzit yüklərin daşınmasında artımın davam etdiyi vurğulandı. Azərbaycanda və Qazaxıstanda yaradılmış birgə investisiya fondu vasitəsilə investisiya layihələrinə dəstək verilməsi, neft-qaz sahəsində birgə layihələrin həyata keçirilməsi, o cümlədən Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə daşınma həcminin artırılmasının perspektivləri ilə bağlı məsələlər müzakirə olundu. Həmçinin yaşıl enerji sahəsində COP29 çərçivəsində imzalanmış sualtı kabel xətti ilə Azərbaycan və Qazaxıstan energetika sisteminin birləşdirilməsi və yaşıl enerji sahəsində əməkdaşlığın inkişafı ilə bağlı müzakirələr aparıldı.

---

# Əfv gözlənilir

## Müvafiq komissiya müraciətləri araşdırır...

**Milli Məclisin İnsan hüquqları komitəsinin iclasında Amnistiya aktının qəbul olunması haqqında məsələ qaldırılıb. Bu təkliflə Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri, hüquq müdafiəçisi Novella Cəfəroğlu çıxış edib. O, Milli Məclisin müvafiq komitəsində İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) 2024-cü il üzrə məruzəsinin müzakirəsi zamanı çıxış edib. Bildirib ki, həbsxanalardan ona və digər hüquq müdafiəçilərinə çox sayda müraciətlər daxil olur: "Hesab edirik ki, Amnistiya aktının qəbul olunması vacibdir".**

**Qeyd edək ki, son dövrlərdə Prezident yanında Əfv Məsələləri Komissiyasının ard-arda bir neçə iclası keçirilib. İki iclasda 200-dən artıq müraciətə baxılıb. Əfv komissiyasının üzvü Rəşad Məcid KİV-ə açıqlamasında bildirmişdi ki, bu müraciətlərə əsasən qəsdən öldürməyə cəhd, sağlamlığa ağır zərərvurma, adam oğurluğuna cəhd, oğurluq və quldurluqla bağlı cinayətlərdə məhkum olunmuş müraciətlər müzakirəyə çıxarılıb, hər bir müraciət diqqətlə araşdırılıb. Vurğulanıb ki, komissiya iclaslarını yekunlaşdırandan sonra müsbət rəy verilmiş sənədlər toplanaraq ölkə başçısına təqdim olunacaq.**

### Humanizmə söykənən dövlət siyasəti...

Ölkəmizin dövlət siyasətində humanizm prinsiplərinə geniş yer verilir. Bunun ən bariz misalı Azərbaycanda indiyə qədər 13 amnistiya aktının qəbul edilməsini və 70-dən çox əfv sərəncamının verilməsini göstərmək olar. Xatırladaq ki, müstəqil Azərbaycanın dövlət siyasətində humanizm ənənəsinin əsasını müdrik siyasətçi Heydər Əliyev qoyub. 1995-ci ildə ölkəmizdə amnistiya institutu məhz Onun təşəbbüsü ilə təsis edilib və Azərbaycan Respublikası Prezidenti yanında Əfv Komissiyası yaradılıb. Bütövlükdə, 1995-2003-cü illərdə respublikamızda Heydər Əliyevin siyasi iradəsi əsasında 7 amnistiya aktı və 32 əfv Fərmanı imzalanıb. Bu amnistiya aktları 77 mindən çox insana şamil edilib. Heydər Əliyevin əsasını qoyduğu dövlət siyasətində humanizm ənənəsi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilib. Eyni zamanda, hər zaman nəcib, humanist təşəbbüsləri ilə ali insani dəyərlərə yüksək qiymət verən Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bu istiqamətdəki fəaliyyəti də xüsusi qeyd edilməlidir. Mehriban xanım Əliyeva Milli Məclisin deputatı olarkən onun təşəbbüsü ilə 2007, 2009, 2013 və 2016-cı illərdə amnistiya aktları qəbul edilib. Bu təşəbbüslər xeyirxahlıq və mərhəmət kimi mənəvi idealların təcəssümünə çevrilib.



Sonuncu belə humanist akt ötən ilin mayında, müstəqilliyimizin 106-cı ildönümü ərəfəsində imzalanıb. Bu Sərəncama əsasən, ümumilikdə, 154 nəfər əfv edilib.

### Əfvin amnistiya ilə fərqi...

Vurğulayaq ki, Amnistiya və əfvetmənin tətbiqi Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. Konstitusiyanın 109-cu maddəsinin 22-ci bəndinə görə, əfvetmə səlahiyyəti Azərbaycan Respublikasının Prezidentinə məxsusdur. Konstitusiyanın 95-ci maddəsinin I hissəsinin 19-cu bəndinə uyğun olaraq, amnistiya məsələlərinin həlli Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətlərinə aiddir. Azərbaycan Respublikasının qüvvədə olan Cinayət Məcəlləsinin 81-ci maddəsinə əsasən, amnistiya aktı fərdi qaydada müəyyən edilməyən şəxslər barəsində Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilir. Cinayət törətmiş şəxslər amnistiya aktı ilə cinayət məsuliyyətindən azad edilə bilərlər. Cinayət törətməyə görə məhkum olunmuş şəxslər isə cəzadan azad edilə bilərlər, yaxud onlara təyin olunmuş cəzanın müddəti azaldıla bilər və ya belə şəxslərin cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilə bilər. Amnistiya aktı ilə belə şəxslər əlavə cəzadan da azad edilə bilərlər. Amnistiya aktı ilə cəzasını çəkmiş şəxslərin məhkumluğu da götürülə bilər.

CM-in 82-ci maddəsinə görə, əfvetmə fərdi qaydada müəyyən edilmiş şəxs barəsində Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir. Cinayət törətməyə görə məhkum olunmuş şəxs əfvetmə aktı ilə cəzanın qalan hissəsini çəkməkdən azad edilə bilər, yaxud ona təyin olunmuş cəzanın müddəti azaldıla bilər. Paralel olaraq belə şəxsin cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilə bilər. Ömürlük azadlıqdan məhrumetmə cəzası əfv qaydasında iyirmi beş ildən çox olmayan müddətə azadlıqdan məhrumetmə cəzası ilə əvəzlənə bilər. Əfvetmə aktı ilə də cəzasını çəkmiş şəxsin məhkumluğu götürülə bilər. Əfvetmə aktı ilə amnistiya aktı arasında fərqə gəldikdə isə, əfvetmə aktı amnistiyadan fərqli olaraq normativ xarakterli deyildir. Əfvetmə konkret hallar üzrə tətbiq edilən aktdır. Eyni zamanda, əfvetmə aktı fərd olaraq məlum şəxslər barəsində tətbiq edildiyi halda, amnistiya fərd olaraq qeyri-müəyyən məhkumlar barəsində tətbiq edilir. Hər iki akt birdəfəlik tətbiqetmə üçün nəzərdə tutulsa da, əfvetmə yalnız qanuni qüvvəyə minmiş hökm əsasında məhkum edilmiş şəxslərə münasibətdə, amnistiya aktı isə cinayət prosesinin istənilən mərhələsində tətbiq edilə bilər, yəni şəxsi məsuliyyətdən və cəzadan azad edə bilər.

### Əfv gözlənilir, amnistiya isə...

Əfv komissiyasının üzvü, Mətbuat Şurasının sədri Rəşad Məcid qəzetimizə açıqlamasında bildirib ki, amnistiya aktı məsələsi Milli Məclisin səlahiyyətinə aid olan bir məsələdir. Əfv komissiyasının isə yaxın günlərdə bu il üçün üçüncü sayılacaq iclasının baş tutması gözlənilir. Əfv məsələləri komissiyası konkret müraciətlərə baxır: "Bunlara məhkumlar və onların yaxınları tərəfindən göndərilən müraciətlər daxildir. Komissiyanın katibliyi qanunvericiliyə uyğun olaraq onları müzakirəyə çıxarır, komissiya hər bir müraciətə fərdi münasibət bildirir. Səsvermə yolu ilə ümumi qərarlar qəbul olunur. Komissiyaya edilən müraciətlərin hamısına baxılması üçün təxminən 6-7 iclasın keçirilməsi lazımdır. Çox güman ki, komissiya öz işini aprel və ya mayın əvvəlində yekunlaşdıracaq. Edilən müraciətlərin hamısına baxıldıqdan sonra sənədlər toplanaraq Prezident İlham Əliyevə təqdim edilir. Əfv məsələsi Azərbaycanın dövlət başçısının müstəsna səlahiyyətidir, humanizm və mərhəmət aktıdır. İndiyə qədər 70 əfv sərəncamı imzalanıb. Yəqin ki, biz yaxın aylarda cənab Prezident tərəfindən imzalanan növbəti əfv sərəncamının şahidi olacayıq. Onu da deyim ki, 2 il öncə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi zamanı Əfv məsələləri komissiyasının sənədləri cənab Prezidentə təqdim olunandan sonra son illərin ən böyük Əfv Sərəncamı əsasında 802 məhbusa şamil edilən akt imzalanıb. Bu il də Konstitusiya və Suverenlik ilidir və daxil olan müraciətlər nəticəsində də güman edirəm ki, yaxın aylarda müvafiq Sərəncam imzalanacaq".

Amnistiya ilə bağlı təklif irəli sürən hüquq müdafiəçisi Novella Cəfəroğlu bildirib ki, Azərbaycanın hərtərəfli inkişafı üçün birlik, həmrəylik ən vacib şərtlərdəndir: "Amnistiya aktı veriləcəyi təqdirdə bu, daha çox insana şamil olunacaq. Buraya müraciət etməyən insanlar da salına bilər. Biz daxilimizdə bir olmalıyıq, birgə olmalıyıq. Bizə dövlətimizi qorumağı cənab Prezidentimiz öyrətdi, bizə Vətənimizi qorumağı Prezidentimiz öyrətdi. Biz milli həmrəyliyimiz üçün bir yerdə olmalıyıq".

**P.İSMAYILOV**

# Addım-addım qayıdış hədəfinə doğru

## Qərbi Azərbaycan İcmasının qayıdışla bağlı dialoq çağırışlarına növbəti beynəlxalq dəstək

Qərbi Azərbaycan mövzusuna beynəlxalq dəstəyin əldə olunması istiqamətində növbəti mühüm uğur əldə edilib. Belə ki, Asiya Parlament Assambleyasının fevralın 17-21-də Bakıda keçirilmiş sessiyasında qəbul edilmiş yekun sənəddə Qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına qayıtmasına və Qərbi Azərbaycan İcmasının qayıdışla bağlı dialoq çağırışlarına birmənalı dəstək ifadə olunub. Bu barədə Qərbi Azərbaycan İcmasının (QAİ) açıqlamasında bildirilib.





### Yeni strateji mərhələnin əsas ümummilli ideyalarından biri

İkinci Qarabağ müharibəsinədək müstəqil Azərbaycanın əsas ümummilli ideyası ərazi bütövlüyümüzün və suverenliyimizin təmin edilməsi idi. Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsinə uyğun olaraq bu məsələ daim ölkəmizin gündəliyinin mərkəzində saxlanıldı və milli güc bu istiqamətdə səfərbər edildi. 44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində qazanılan şanlı qələbələr sayəsində biz əsas ümummilli ideyamızın gerçəkləşməsinə nail olduq.

Vətən müharibəsində və lokal xarakterli antiterror tədbirlərində qazanılan qələbələrin əhəmiyyəti misilsizdir. Biz dünya ermənilyinə, Azərbaycanofob güclərə qalib gəlmişik. Ancaq Prezident İlham Əliyevin bildirdiyi kimi, biz uğurlarımızı, tarixi zəfərlərimizi uzun müddət istismar edə bilmərik. Yeni strateji mərhələdə qarşımızda digər mühüm prioritetlər dayanır. Hazırda bizim əsas ümummilli ideyalarımızdan biri zamanında indiki Ermənistan ərazisindən zorla qovulmuş azərbaycanıların tarixi yurd yerlərinə qayıdışının təmin edilməsi ilə bağlıdır. Azərbaycan dövləti və cəmiyyəti bu məsələdə israrlı yanaşma sərgiləyir.

Qərbi Azərbaycan icması bir toplum olaraq haqqı tapdanan yüz minlərlə soydaşımızı və onların qanuni varislərini əhatə edir. Bu icmanın adı zamanında soydaşlarımızın yaşadıqları tarixi ərazilərimizin adından götürülüb. Yəni bugünkü Ermənistan Azərbaycanın Qərb bölgələrində yaradılıb və həmin ərazilərdən aborigen sakinlər olan azərbaycanlılar iradələrinin əksinə olaraq zorla çıxarılıblar, müxtəlif dönəmlərdə amansız deportasiyalara məruz qalıblar.

Bu məkrli plan bir neçə mərhələdə reallaşdırılıb. XIX əsrin əvvəllərində imzalanmış "Gülüstan" və "Türkmənçay" müqavilələrindən sonra ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi ilə azərbaycanlıların tarixi ərazilərimizdən deportasiya edilməsinin əsası qoyulub. Onların doğma yurd yerlərindən çıxarılması prosesi xüsusilə ötən əsrin əvvəllərindən başlayaraq kütləvi hal alıb. XX yüzillikdə soydaşlarımız düz dörd dəfə deportasiyaya məruz qalıblar. 1918-ci ildə baş verən birinci deportasiya zamanı qədim Azərbaycan şəhəri olan İrəvan zorla Ermənistana verilib. 1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə bizim digər tarixi torpağımız Zəngəzur Azərbaycandan alınaraq Ermənistana birləşdirilib. Bundan sonra 1948-1953-cü illər deportasiyası gəlir.

### Sonuncu və ən ağır deportasiya

Azərbaycanlıların doğma yurd yerlərindən zorla çıxarılması əslində etnik təmizləmə, mono-etnik dövlət qurmaq siyasəti idi. 1970-1980-ci illərdə - böyük siyasətçi Heydər Əliyevin respublikamıza birinci rəhbərliyi dövründə bu proseslərin qarşısı alınıb, xalqımız Ermənistan ərazisində növbəti deportasiya və etnik təmizləməyə məruz qalmayıb. Lakin 1987-ci ildə Heydər Əliyevin keçmiş ittifaq rəhbərliyindən uzaqlaşması ilə Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın növbəti qara günləri başlayıb. Belə ki, 1988-1991-ci illərdə azərbaycanlıların Ermənistandan deportasiyasının sonuncu mərhələsi həyata keçirilib. Ağır işgəncələrlə, çoxlu sayda insanın məqsədli şəkildə qətlə yetirilməsi ilə müşayiət olunan sonuncu deportasiya tariximizə ən amansız deportasiya kimi düşüb.

Xatırladaq ki, həmin dövrdə Ermənistanda 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayırdı, 90-a yaxın kənddə, eləcə də böyük şəhərlərdə azərbaycanlılar əksəriyyət təşkil edirdilər. Həmin kəndlərdə və şəhərlərdə yaşayan soydaşlarımız 3 il ərzində Ermənistandan zorla çıxarılıb, soyqırımı və işgəncələrə məruz qalıblar. Verilən məlumatlara əsasən, azərbaycanlıların Ermənistan ərazisində yerləşən ata-baba yurdlarından sonuncu deportasiyası zamanı 300-ə yaxın yaşayış məntəqəsindən 50 mindən artıq ailədən təxminən 300 min soydaşımız zorla qovulub, 200-dən artıq soydaşımız vəhşicəsinə qətlə yetirilib, 400 nəfərdən artıq insan yaralanıb, bir çoxlarının evləri, əmlakları yandırılıb, yandırılmayanlar isə ermənilər tərəfindən əvəzi ödənilmədən qəsb edilib. Sonuncu deportasiya zamanı Ermənistandan qovulan qaçqınlara dəyən ümumi maddi ziyan 20 milyard ABŞ dollarından artıq təşkil edir ki, beynəlxalq qiymətləndirmə standartlarına görə 37 ildən sonra bu gün həmin rəqəm 1 trilyon ABŞ dollarına çatmaqdadır. Bu itkilərin üzərinə soydaşlarımıza dəyən mənəvi ziyanı, onların keçirdikləri stresləri də əlavə etsək, mənzərə barədə konkret təsəvvür yaranar.

### Tarixi-mədəni abidələr də erməni vandalizminə məruz qalıb

Ən qəddar formalarda həyata keçirilən deportasiyalar nəticəsində yalnız insanlar faciələrlə üzləşməmişlər. Həmçinin tarixi abidələrimiz, mədəni-dini irs nümunələrimiz də erməni vandalizminə məruz qalıb. Ermənilər tarixi ərazilərimizdə azərbaycanlı izlərini itirməkdən ötrü ən ağlagəlməz vasitələrə əl atıblar. Hətta qəbiristanlıqlar, məscidlər belə dağıdılıb. O cümlədən UNESCO tərəfindən ümumbəşəri mədəni dəyər kimi tanınan Azərbaycan aşıq sənətinə ciddi zərər vurulub. Xalqımızın Ermənistan ərazisində yaratdığı mədəni irs nümunələrindən yalnız Göy Məscid günümüzə qədər salamat qalıb. Lakin bu abidəyə münasibətdə də erməni xisləti ortadadır. Belə ki, Ermənistan Göy Məscidin orijinal tarixi-memarlıq üslubunu qəsdən dəyişdirərək onu başqa ad altında təqdim etməyə çalışır. Prezident İlham Əliyev bildirib ki, regionun tarixini və mədəni mənzərəsini təhrif etmək, yenidən yazmaq məqsədi daşıyan belə destruktiv addımlar dözümsüzlük və irqçilikdən başqa bir şey deyildir.

Bütün bunlarla kifayətlənməyən Ermənistan ötən əsrin doxsanıncı illərinin əvvəllərindən etibarən Azərbaycana qarşı elan olunmayan müharibəyə başlayıb və havadarlarının dəstəyi ilə torpaqlarımızın 20 faizini işğal edib. Bu işğal nəticəsində də xalqımız etnik təmizləməyə məruz qalıb, şəhər və kəndlərimiz, mədəni abidələrimiz dağıdılıb, sərvətlərimiz talanıb. Azərbaycan bu ədalətsizliyə, beynəlxalq hüququn pozulmasına öz gücünə son qoymağı bacardı.




### Sırf insan haqları məsələsi

Postmüharibə dövründə qalib Azərbaycanın sülh təşəbbüslərini lazımi şəkildə dəyərləndirməyən, yeni müharibə hazırlıqları görən məğlub Ermənistan soydaşlarımızın doğma yurd yerlərinə qayıdışı məsələsini də manipulyasiya predmetinə çevirməyə çalışır. Bu ölkənin hakimiyyəti Qərbi Azərbaycandan olan insanların geri qayıdış hüququnu tanımaq istəmir. Rəsmi İrəvan Azərbaycanın bu məsələni gündəmə gətirməsini yanlış olaraq Ermənistanın ərazi bütövlüyünə təhdid anlamında təqdim etməyə çalışır. Bu, Ermənistan rəhbərliyinin əl atdığı növbəti manipulyasiyadır. Qalib Azərbaycan müharibə səhifəsini bağlamaq və gələcəyə baxmaq əzmindədir. Buna görə daim sülh təşəbbüslərindən çıxış edir. Ölkəmizin heç bir qonşu dövlətin, o cümlədən də Ermənistanın ərazi bütövlüyünü pozmaq kimi bir niyyəti yoxdur. Qərbi Azərbaycandan olan insanların doğma yurd yerlərinə qayıtmaları məsələsinə gəldikdə isə bu, beynəlxalq hüquqla təsbit edilən insan haqları məsələsidir. Ermənistanın özünün də qoşulduğu bir sıra beynəlxalq konvensiyalar insanların qayıdış hüquqlarını tanıyır. Bu sıradan Ümumdünya İnsan Hüquqları Bəyannaməsini, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktı, Pinheiro Prinsiplərini və beynəlxalq adət hüququnu qeyd etmək mümkündür.

Rəsmi İrəvan əsassız ittihamlardan əl çəkərək beynəlxalq hüquq çərçivəsində davranışlar sərgiləməlidir. Qeyd edək ki, Qərbi Azərbaycan İcması indiyədək bir neçə dəfə dialoq təşəbbüsündən çıxış edib. Ermənistan rəhbərliyi səmimilik göstərib QAİ ilə dialoqa başlamalıdır. Söhbət yüz minlərlə insanın pozulmuş hüquqlarının bərpasından gedir. Ermənistan tərəfindən azərbaycanlıların tarixi yurd yerlərinə ləyaqətli şəkildə qayıdışına şərait yaradılması, onların təhlükəsizliyinin təmin edilməsi həm ədalətin bərpası, həm də münaqişə sonrası mərhələdə barışıq və etimad mühitinin qurulması üçün çox mühüm addım olardı.

### Sülhə, beynəlxalq hüquqa və tarixi ədalətə əsaslanan Qərbi Azərbaycana Qayıdış Konsepsiyası

Qeyd edək ki, soydaşlarımızın qədim yurd yerlərimizdən zorla çıxarılması kimi tarixi ədalətsizliyə, faciələrə ilk dəfə böyük siyasətçi Heydər Əliyev hüquqi-siyasi qiymət verib. Sabiq Prezident bununla bağlı 1997-ci il dekabrın 18-də "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında", 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı" və 2001-ci il avqustun 22-də "Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında" fərmanlar imzalayıb.

Sonrakı mərhələdə bu siyasəti eyni ardıcıllıqla Prezident İlham Əliyev davam etdirib. Soydaşlarımızın Qərbi Azərbaycana qayıdış ideyası məhz dövlətimizin başçısı tərəfindən gündəmə gətirilib. Prezident İlham Əliyev bununla bağlı dəfələrlə öz fikirlərini ifadə edib. Son 20 ildən artıq müddətdə dövlətimizin başçısının imzaladığı bir sıra sənədlər, o cümlədən Göyçə aşıq məktəbinin görkəmli nümayəndəsi Aşıq Ələsgərin yubileyinin keçirilməsi, Bakıda onun abidəsinin ucaldılması soydaşlarımızın Qərbi Azərbaycana qaydışı üçün mənəvi zəmin formalaşdırır. Çox doğru olaraq Aşıq Ələsgərin Bakıda dövlətimizin başçısının iştirakı ilə açılışı keçirilən abidəsi təkcə Qərbi Azərbaycan icmasının üzvlərini deyil, bütövlükdə xalqımızı vahid amal uğrunda birləşdirən bir rəmz kimi qəbul olunur. Abidənin kompozisiyası da elə bu ideyanı özündə ehtiva edir.

Azərbaycan Prezidenti sülhə, beynəlxalq hüquqa və tarixi ədalətə əsaslanan siyasət həyata keçirir. Qərbi Azərbaycana Qayıdış Konsepsiyası da bu üç prinsipə uyğun reallaşdırılır. İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların fərdi və kollektiv hüquqlarının təmin olunması Qayıdış Konsepsiyasının əsas hədəfini təşkil edir.

### QAİ-nin səmərəli fəaliyyəti - Qərbi Azərbaycana qayıdış məsələsi beynəlxalq müstəviyə çıxarılıb

Azərbaycanda soydaşlarımızın qayıdış hüququnun gec-tez reallaşacağına böyük inam var. QAİ-nin formalaşması bu istiqamətdə atılan çox mühüm addımdır. 1989-cu ildə yaradılan və Qərbi Azərbaycandan olan qaçqın soydaşlarımızın sosial və məskunlaşma problemləri ilə məşğul olan Azərbaycan Qaçqınlar Cəmiyyəti, Prezident İlham Əliyevin tövsiyəsi ilə 2022-ci ildə Qərbi Azərbaycan İcması adı ilə yenidən təşkil edilib. Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri və Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun rəhbəri Əziz Ələkbərovun bildirdiyinə görə, bu təsisatlanma tarixi torpaqlarımız uğrunda mübarizəyə yeni təkan verərək, soydaşlarımızın dinc və təhlükəsiz qayıdışı üçün siyasi əsaslar yaradan "Qayıdış Konsepsiyası"nın hazırlanmasına zəmin yaradıb.

Eyni zamanda, Prezident İlham Əliyevin liderliyi sayəsində İcmanın hazırladığı sənədlər qısa müddətdə beynəlxalq təşkilatlarda, həmçinin BMT-də rəsmi sənədlər kimi təqdim edilib. Qurumun ayrı-ayrı nüfuzlu beynəlxalq təşkilatlarla, o cümlədən Avropa İttifaqı, UNESCO ilə əməkdaşlığı genişlənib. 2024-cü ildə Qambiyada keçirilmiş İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə 57 dövlətin yekun sənədində Ermənistandan qovulmuş azərbaycanlıların qayıdışına dəstək ifadə olunması və Ermənistanın müsəlman irsinə qarşı törətdiyi vandalizmin qınanması Azərbaycan diplomatiyasının uğurudur. 2024-cü ilin dekabrında Bakıda Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə "Qayıdış hüququ - Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda II beynəlxalq konfrans keçirilib. 51 ölkədən 100-dən çox nümayəndənin qatıldığı konfransda soydaşlarımızın qayıdış hüququnun real əsasları olduğuna xüsusi diqqət çəkilib. Qərbi Azərbaycan İcmasının açıqlamasında qeyd olunub ki, özündə 44 dövlətin parlamentini birləşdirən Asiya Parlament Assambleyasının Qərbi azərbaycanlıların qayıdış hüququna dəstək ifadə etməsi bu mövzunun beynəlxalq sülh və insan hüquqları gündəliyinin əsas məsələlərindən biri kimi qəbul olunmasının növbəti mötəbər təsdiqidir.

***Mübariz ABDULLAYEV***

# Bizi birləşdirən dəyər...

## Azərbaycançılığın təbliği üçün hansı işlər görülməlidir?

**Tarix boyu yaranan və insanların şüurunda formalaşan ictimai dəyərlər hər bir dövlətin inkişafına və güclənməsinə böyük təsir göstərir. Ölkəmizdə bu dəyərlərin məcmusu azərbaycançılıq ideyasıdır. Məhz azərbaycançılıq bizi birləşdirən dəyərdir. Bu ideya özündə vətənpərvərlik, loyallıq, habelə cəmiyyət və dövlət qarşısında vətəndaşın məsuliyyətini birləşdirir.**

**1993-cü ildə Ulu Öndər cəmiyyətimizin inkişafında ideya təməli olan azərbaycançılıq konsepsiyasını irəli sürdü. Azərbaycançılığın bütün dünya azərbaycanlılarını birləşdirən ümummilli ideologiya halına gəlməsi istiqamətində tarixin bütün dövlərində işlər görüldü. 44 günlük Vətən müharibəsi və bu müharibədən əvvəlki və sonrakı illərdə baş verən ümummilli hadisələr fonunda azərbaycançılıq ideologiyasının nə dərəcədə önəmli və birləşdirici rol oynadığı bir daha göründü.**

**Prezident İlham Əliyev də dəfələrlə azərbaycançılıq ideologiyasının vacibliyini vurğulayıb. "Bizi əsrlər boyu bir millət, bir xalq kimi qoruyan, saxlayan dəyərlərimiz olmuşdur. Bu gün bu məsələyə çox böyük diqqət göstərilir. Qloballaşan, çətinliklərlə üzləşən dünyada milli dəyərlərimiz bizim dövlətçiliyimizin təməlini təşkil edir. Bizim dövlətçiliyimizin çox möhkəm ideoloji əsasları vardır. Azərbaycançılıq məfkurəsi bizim əsas ideoloji dayağımızdır".**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azərbaycançılıq ideyasının təbliği" istiqaməti üzrə hazırlanmışdır**

## Milli inkişafımızın ideya təməli...

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov azərbaycançılıq ideyasının təbliği ilə bağlı fikirlərini "Yeni Azərbaycan"la bölüşüb. Deputatın sözlərinə görə, milli ideologiyamız kimliyindən, siyasi mövqeyindən və baxışından asılı olmayaraq, hər birimizi birləşdirən əsas dəyər olmalıdır: "Məhz xalqın bütün kəsimlərinin həmrəyliyinə nail olmaqla milli inkişaf yolumuzu təmin edə bilərik. Bu gün Azərbaycanda qədim dövrlərdən başlayaraq bu günümüzə qədər Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini, polietnik zənginliyini özündə yaşadan və birləşdirən baxışlar sistemi kimi azərbaycançılıq ideyası təşəkkül tapıb. Azərbaycan tarixən çoxmillətli ölkə, milli və dini tolerantlığın bərqərar olduğu məkan kimi tanınıb. Bu üstün cəhətlər azərbaycançılıq məfkurəsinin əsasını təşkil edib. Xalqımızın böyük mütəfəkkirlərinin, dövlət adamlarının, ictimai xadimlərinin fəaliyyətində bu ideya zaman-zaman özünü göstərib. Lakin birmənalı şəkildə qeyd edə bilərik ki, azərbaycançılığın ümummilli ideya halına gəlməsi, bütün dünya azərbaycanlılarını birləşdirən məfkurəyə, müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevrilməsi məhz Heydər Əliyevin tarixi xidmətidir. O, güclü dövlətçilik xəttini, ölkəmizin siyasi-iqtisadi əsaslarını yaratmaqla yanaşı, xalqımızın milli inkişafının ideya təməli ola biləcək konsepsiyanın - azərbaycançılığın banisi olub".

## Azərbaycançılıq ideoloji və siyasi sipər oldu!

B.Məhərrəmov qeyd edub ki, məhz azərbaycançılıq Azərbaycana qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizi etnik bölücülük əsasında parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipər oldu: "Çünki azərbaycançılıq bizim keçmişimizdən gələn dəyər olaraq vahid Azərbaycanın ideya əsası, ölkədə bütün konfessiya və etnosların həmrəylik və anlaşma içində birgəyaşayışının tarixi təcrübəsidir. Bundan sonra da dünyada yaşayan hər bir azərbaycanlı Azərbaycan dövlətinin qüdrətlənməsi, xalqımızın gələcək rifah halında yaşaması naminə azərbaycançılıq ideologiyasının bizi birləşdirən meyar olmasını əsas tutaraq, buna uyğun əməli fəaliyyət göstərməlidir.

Ancaq milli birliyi, həmrəyliyi təmin etməklə üzləşdiyimiz bütün çətinlikləri dəf edə bilərik. Bu yolla qloballaşma prosesinin mənfi xüsusiyyətlərini dəf edib, dünyanın böyük tarixə malik xalqı olmağa davam edə bilərik".



## İşimizi bu istiqamətdə qurmalıyıq

Deputat vurğulayıb ki, hər birimiz bir vətəndaş kimi azərbaycançılıq ideologiyasının inkişafında iştirak etməliyik: "Əsas vəzifəmiz, işimiz azərbaycançılıq ideologiyasına xidmət etməkdən ibarət olmalıdır. Bütün sahələrdə bu istiqamətdə fəaliyyət göstərməliyik. Bu mədəniyyət, ədəbiyyat, musiqi, kino, elm və digər sahələrdə gördüyümüz bütün işlərdə özünü göstəməlidir.

Azərbaycançılıq ideologiyasının təməllərini nə qədər dərindən öyrənsək, uğurlarımız bir o qədər çox olar. Təbii ki, şüarlarla deyil, işimizlə, əməlimizlə, davranışımızla, millətimizə, dövlətimizə xidmətimizlə bunu etməliyik. Mədəniyyətimizlə, dilimizlə, tariximizlə, əxlaqımızla, milli-mənəvi dəyərlərimizlə böyük dünya mədəniyyətinin bir hissəsinə çevrilməyi bacarmalıyıq və işimizi bu istiqamətdə qurmalıyıq".

*Sahib*

# Fransa sülhə qarşıdır

## Müstəmləkə siyasətini davam etdirən Parisin Azərbaycana qarşı iddiaları əsassızdır

Məlumdur ki, bəşəriyyətin kolonializm tarixinin qanlı cinayətlərinin çoxu məhz Fransa tərəfindən törədilib. Fransanın fəal surətdə məşğul olduğu qul ticarəti insanlığın ən utancverici səhifələrindən biridir. Milyonlarla insan bu ölkənin qul siyasətinin qurbanı olub. Müstəmləkəçi Qərb ölkələri demokratiyanı və insan hüquqlarının qorunmasını özlərinin "fundamental prinsipləri" kimi bəyan etsələr də, Afrikada, Yaxın Şərqdə, Latın Amerikasında neokolonializmi davam etdirməklə insan hüquq və azadlıqlarına, ümumiyyətlə, məhəl qoymurlar. Xüsusilə, Fransa öz əsarətində saxladığı xalqların suverenliyinin məhdudlaşması, yeraltı və yerüstü sərvətlərinin talanması ilə yanaşı, fundamental insan hüquqlarının tapdanmasını ən ağır təzahürlər kimi adiləşdirərək dövlət siyasətinə çevirib. Neokolonializm siyasətində Fransa ən pis nümunə ortaya qoyur. Hazırda 13 dənizaşırı ərazini müstəmləkəsi kimi idarə edən, həmçinin dünyanın müxtəlif qitələrində yerləşən keçmiş müstəmləkələrinin daxili işlərinə qarışan Fransa beynəlxalq təşkilatların və müstəqillik uğrunda mübarizə aparan xalqların uzun illərdir tələblərinə baxmayaraq, neokolonializm siyasətini davam etdirir. Fransız imperiyası əsrlər boyu Karib dənizi, Sakit okean və Afrikada geniş müstəmləkələr yaradıb və bu ərazilərdə öz idarəçiliyini gücləndirib.

## XİN: Fransa tərəfinin səsləndirdiyi fikirləri qətiyyətlə rədd edirik



Nə qədər paradoksal olsa da, bu gün Fransanın bəzi rəsmi şəxsləri Azərbaycanı guya onların daxili işlərinə qarışmaqda və dənizaşırı ərazilərdə müxtəlif fəaliyyətlərdə "ittiham" edirlər. Belə iddialarla bugünlərdə Fransanın dənizaşırı ərazilər naziri Manuel Vals da çıxış edib. Vals, həmçinin Cənubi Qafqazda real vəziyyəti də təhrif edib. Azərbaycanın Xarici İşlər Nazirliyi isə fransız nazirin iddialarının əsassız olduğunu bəyan edib. Nazirliyin mətbuat katibi Ayxan Hacızadə bildirib ki, iflasa uğramış xarici siyasətindən dərs çıxarmaq əvəzinə, ölkəmizi əsassız iddialarla günahlandırmaqla düşdüyü vəziyyətdən ictimai diqqəti yayındırmağa çalışan Fransa tərəfinin səsləndirdiyi fikirləri qətiyyətlə rədd edirik. Onun sözlərinə görə, Fransadan fərqli olaraq, öz xarici siyasətində və bütün addımlarında beynəlxalq hüququn əsas norma və prinsiplərini rəhbər tutan Azərbaycanı əsassız yerə günahlandıran bu ölkənin özünün müstəmləkəçilik keçmişini davam etdirmək naminə müxtəlif ölkə və xalqlara qarşı atdığı qeyri-demokratik addımlarını unutmasına baxmayaraq, onları hər kəs yaxşı xatırlayır: "Cənubi Qafqazda sülh üçün yaranmış tarixi imkanlar fonunda Fransanın çıxış etdiyi mövqeyə, habelə Ermənistanı silahlandırmaqla bölgədə yeni eskalasiya törətmək cəhdlərinə baxmaq kifayətdir ki, əslində kimin həqiqətən də "xarici müdaxilə" ilə məşğul olduğu aydın olsun. Qəribədir ki, Azərbaycanı "etnik təmizləmə"də ittiham edən Fransa tərəfi, keçmiş münaqişənin həllinə məsul olan Minsk prosesinin həmsədrlərindən biri olması və bu ölkənin heç zaman Ermənistanın işğal siyasəti nəticəsində 1 milyona yaxın azərbaycanlının qaçqın və məcburi köçkünə çevrilməsini qınamaması fonunda, könüllü surətdə Azərbaycanın Qarabağ bölgəsini tərk edən insanların guya "etnik təmizləməyə" məruz qalmasını iddia etməsi riyakarlıqdan və öz maraqları naminə faktların təhrifindən başqa bir şey deyil. Fransa tərəfindən ölkəmizə qarşı bu əsassız yalan kampaniyasını dayandırmağı tələb edirik".



## Müstəmləkəçiliyə qarşı mübarizəyə siyasi və mənəvi dəstək verilir

Ümumiyyətlə, Azərbaycan beynəlxalq hüquq məsələsində prinsipial mövqe nümayiş etdirir və Fransanın müxtəlif xalqlara qarşı repressiv siyasətinə etiraz səsini ucaldır. Eyni zamanda, müstəmləkəçiliyə qarşı aparılan mübarizəyə siyasi və mənəvi dəstək verilir. Bakı Təşəbbüs Qrupunun yaradılması da bu məqsədə xidmət edir. Yarandığı vaxtdan Bakı Təşəbbüs Qrupu Fransanın müstəmləkəçilik siyasətindən əziyyət çəkən xalqların hüquqlarının müdafiəsi üçün çoxlu sayda beynəlxalq konfrans keçirib. Bu tədbirlər həm Azərbaycanda, həm də müxtəlif ölkələrdə və beynəlxalq təşkilatlarda reallaşdırılıb.

Rəsmi Parisin Cənubi Qafqazda mövcud vəziyyətlə bağlı yanaşmasına gəlincə, 30 il ərzində Ermənistanın işğalçı siyasətinin nəticələrinə biganə qalan Fransa indi öz ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş Azərbaycan haqqında əsassız olaraq dezinformasiya yayır. Rəsmi İrəvanın da Qarabağın Azərbaycan ərazisi olduğunu etiraf etdiyi halda, Paris mütəmadi olaraq reallıqları təhrif etmək üçün canfəşanlıq edir. Eləcə də, Fransa Avropa İttifaqının müşahidə missiyası adı altında öz casuslarını Ermənistanla Azərbaycan arasındakı şərti sərhəddə yerləşdirib. Bütün bunlar Fransanın regionda sülhün təmin edilməsinə maraqlı olmadığının göstəricisidir.

*Nardar BAYRAMLI*

# Ombudsmanın illik məruzəsi...

## Parlamentin İnsan hüquqları komitəsində müzakirə olunub

**Milli Məclisin İnsan hüquqları komitəsinin dünən keçirilən iclasında "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2024-cü il üzrə məruzəsi" müzakirə olunub. Komitə sədri Zahid Oruc bildirib ki, Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində müvəkkil ötən il ümumilikdə müxtəlif qurumlara 352 başçəkmə həyata keçirib. Dövlət-hökumət və bələdiyyə orqanlarının fəaliyyətinə nəzarət baxımından ən mühüm səlahiyyətləri sırasında ombudsman məhz belə ziyarətləri həyata keçirməklə müvafiq sahələrdə gerçək vəziyyəti öyrənməyə çalışır, formal deyil, sərt tələblər çərçivəsində fəaliyyətini qurur.**

## Aliment Fondu saxta boşanmaları artıra bilər

Sağlamlıq hüququ ilə bağlı fikirlərini səsləndirən komitə sədri qeyd edib: "Son illər səhiyyə xərclərinin 3 milyard manata çatmasını xüsusi hadisə kimi söyləməliyik. Dövlətimiz xüsusi tədbirləri gücləndirir. Bununla bərabər, tibbi sığorta ilə müayinə və müalicə alanların sayı barədə verilən açıqlamalar hələ görüləsi işlərin çox olduğunu göstərir. Bölgələrdə ilkin tibbi xidmətlər üzə məntəqələrin çatışmazlığı hələ də problem olaraq qalır".

Z.Oruc Aliment Fondunun yaradılması ilə bağlı məruzədə yer alan təklifə də münasibət bildirib. Onun sözlərinə görə, boşanmalarla bağlı Aliment Fondunun yaradılması effektli yol kimi irəli sürülür: "Bizə görə belə addımın atılması əksinə, saxta boşanmaları gücləndirə bilər. Məruzədə ombudsmanın aliment ödənişlərinin təyinatını, qanunvericilikdə aliment öhdəliklərinin icrasına xüsusi yanaşmanı, o cümlədən bu sahədə məhkəmə qərarlarının icrasındakı problemləri nəzərə alaraq, habelə xarici ölkələrin təcrübəsinə əsaslanmaqla əvvəlki illik məruzələrində Aliment Fondunun yaradılması ilə bağlı irəli sürdüyü təklif aktuallığını saxlayır".



## Hakimlər həbs-qətimkan tədbiri seçərkən qərarı əsaslandırmalıdır

Qeyd edək ki, illik məruzədə müvəkkil qanunvericiliklə əlavə səlahiyyətlər istəyir. Belə ki, ombudsmanın qanunvericilik təşəbbüsü hüququnun təsbit olunması, onun insan hüquqlarına dair qanun layihələrinin parlamentdə müzakirəsində iştirak etməsi və rəy bildirməsi ilə bağlı qanunvericiliyə müvafiq dəyişikliyin edilməsi, ombudsmanın Azərbaycan Konstitusiyasının və qanunlarının şərh edilməsi ilə əlaqədar Konstitusiya Məhkəməsinə müraciət etmək hüququnun qanunvericiliklə təsbit olunması, ombudsmanın Məhkəmə-Hüquq Şurasının tərkibində təmsil olunması məsələsinə baxılması təklif olunur.

Məruzədə həmçinin vurğulanır ki, hakimlər həbs-qətimkan tədbiri seçərkən qərarı əsaslandırmalıdır: "Hakimlər tərəfindən məhkəmələrdə həbs qətimkan tədbirinin seçilməsi haqqında təqdimata baxarkən digər qətimkan tədbirlərinin seçilməsinin mümkünlüyünün yoxlanılmalıdır. Hakimlərə təqdimat təmin edildikdə isə həbslə əlaqədar olmayan qətimkan tədbirinin seçilməsinin qeyri-mümkün olmasının əsaslandırılması tövsiyə olunur. Məhkəmə-hüquq sistemində həyata keçirilən islahatlar cəza siyasətinin humanistləşdirilməsini və cinayətlərin dekriminallaşdırılmasını, qətimkan tədbirlərinin seçilməsi zamanı həbsin tətbiq edilməsi əsaslarına dair cinayət-prosessual qanunvericiliyin müddəalarına əməl olunmasını, alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsini nəzərdə tutulur".

## Ombudsman yeni dövlət proqramının qəbul olunmasını təklif edir

Bundan əlavə, İnsan hüquqları üzrə müvəkkil məruzədə "Biznes və insan hüquqları üzrə Dövlət Proqramı"nın hazırlanması və qəbul edilməsini təklif edib. Sənəddə vurğulanıb ki, yeni dövlət proqramı BMT-nin "Biznes və insan hüquqları üzrə rəhbər prinsipləri"ni və "Biznes və insan hüquqları üzrə Milli Fəaliyyət proqramlarına dair Təlimatı"nı, eləcə də bu sahədə xarici ölkələrin müsbət təcrübəsini nəzərə alaraq, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarına hörmət və riayət edilməsini, hüquq-müdafiə vasitələrinin daha əlçatan olmasını təmin etmək, korporativ sosial məsuliyyətin təbliği və tətbiqi ilə sahibkarların ölkənin sosial-iqtisadi həyatında daha fəal iştirakına şərait yaratmaq, bu sahədə aidiyyəti qurumların fəaliyyətinin əlaqələndirilməsinə nail olmaq məqsədi daşımalıdır.

Qeyd edək ki, müzakirələrdən sonra ombudsmanın illik məruzəsi parlamentin plenar iclasına tövsiyə edilib.

*Nardar BAYRAMLI*

London sammitində aparılan müzakirələrin pərdəarxası...

# "Avropa Plus" qrupu yaradılır?

Böyük Britaniyanın paytaxtı Londonda Ukraynaya həsr olunmuş sammit hazırda beynəlxalq gündəmin əsas mövzularından biridir. Sammitdə Almaniya, Danimarka, İspaniya, İtaliya, Kanada, Niderland, Norveç, Polşa, Rumıniya, Finlandiya, Fransa, Çexiya, İsveç liderləri, habelə Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayen, Avropa İttifaqı Şurasının sədri Antoniu Koşta, NATO-nun Baş katibi Mark Rütte və Ukrayna Prezidenti Zelenski qatılıb. Türkiyəni görüşdə xarici işlər naziri Hakan Fidan təmsil edib. Tədbir ərəfəsində bildirilirdi ki, müzakirələrin əsas mövzusu Ukraynanın mövqeyinin gücləndirilməsi, o cümlədən Kiyevə hərbi təchizat və Rusiyaya iqtisadi təzyiqlərin artırılmasıdır.

## "Potensial atəşkəsin əsası güclü təhlükəsizlik təminatları olmalıdır"

Tədbirə ev sahibliyi edən Böyük Britaniyanın Baş naziri Kir Starmer sammit iştirakçılarına müraciət edərək, bu görüşü Avropanın təhlükəsizliyi üçün nəsillər boyunca bir dəfə baş verə biləcək an kimi qiymətləndirib. O, həmçinin qeyd edib ki, Ukrayna üçün ədalətli sülh əldə edilməsi bütün Avropa ölkələrinin təhlükəsizliyində həyati əhəmiyyət daşıyır.

Görüşdən sonra Ukrayna Prezidentinin rəsmi saytı məlumat yayıb ki, Kiyev ilə Rusiya arasında potensial atəşkəsin əsası güclü təhlükəsizlik təminatları olmalıdır: "Potensial atəşkəsin əsası mütləq güclü təhlükəsizlik təminatları olmalıdır. Xüsusilə, Ukrayna ordusunun təhlükəsizliyinin və gücləndirilməsinin təminatlarından biri kimi Şimali Atlantika Müqaviləsi mexanizmlərinin cəlb edilməsi imkanları nəzərdən keçirilir". Eyni zamanda, Ukrayna Prezidentinin mətbuat xidməti qeyd edib ki, atəşkəs rejiminin başlanması əsirlərin dəyişdirilməsi və uşaqların geri qaytarılması ilə başlamalıdır. "Bu, Rusiyanın sülhlə bağlı əsl niyyətini nümayiş etdirəcək addımdır", - deyə mətbuat xidməti əlavə edib.

Zelenski isə görüşdən sonra sosial şəbəkə hesablarında bəyan edib ki, Rusiya ilə Ukrayna arasında müharibənin tənzimlənməsi istiqamətində ədalətli sülhün əldə edilməsi üçün bir sıra qərarlar hazırlanır: "Biz tərəfdaşlarımızla təhlükəsizlik təminatlarını və Ukrayna üçün ədalətli sülh üçün şərtləri müzakirə edirik. Yaxın vaxtlarda bir sıra mühüm görüşlər və qərarlar açıqlanacaq". Prezident daha sonra qeyd edib: "Biz Ukraynadan, xalqımızdan, əsgərlər və mülki şəxslərdən güclü dəstəyi hiss edirik. Biz bütün dostlarımıza və tərəfdaşlarımıza Ukraynaya sabit və zəmanətli sülh gətirmək üçün göstərdikləri səylərə görə təşəkkür edirik. Ümumi güc gələcəyimizi qoruya bilər". Zelenski, həmçinin ərazi güzəştləri müqabilində sülhün tərəfdarı olmadığını vurğulayıb.

## Tusk: müzakirə edilməyib

Qeyd edək ki, sammitdə konkret qərarlar qəbul olunmayıb. Polşanın Baş naziri Donald Tusk da sammitdən sonra jurnalistlərə açıqlamasında bildirib ki, toplantıda Aİ və NATO ölkələrinin liderləri Ukrayna üçün təhlükəsizlik təminatları, o cümlədən qoşunların göndərilməsi imkanları məsələsini müzakirə etməyiblər. Onun sözlərinə görə, toplantının iştirakçıları arasında Türkiyə və Kanada kimi ittifaqa daxil olmayan ölkələr olduğu üçün sammitin formatı xüsusilə Aİ səviyyəsində konkret qərarların qəbulunu nəzərdə tutmayıb. Baş nazir əlavə edib ki, Polşa Ukrayna üçün təhlükəsizlik zəmanətlərinin verilməsində ön sıralarda durmaq niyyətində deyil.

Birləşmiş Krallığın Baş naziri Kir Starmer isə sammitdən sonra keçirilmiş mətbuat konfransında müəyyən razılıqlara gəlindiyini bəyan edib. Starmer ilk növbədə, liderlərin yaxın zamanda yenidən görüşmək barədə razılığa gəldiklərini açıqlayıb. Onun sözlərinə görə, məqsəd "hərəkət tempini qorumaq" və ümumi plan üzərində işi davam etdirməkdir. Starmer çıxışında dünya liderlərinin ciddi bir seçim qarşısında olduğunu vurğulayıb: "Bu gün biz tarixin dönüş nöqtəsindəyik. Artıq boş danışmağın vaxtı deyil - hərəkət etmək və ədalətli, dayanıqlı sülhün əldə olunması üçün yeni plan ətrafında birləşmək zamanıdır".



## Avropa ABŞ-ın dəstəyinə ehtiyac duyur

Böyük Britaniya, Fransa və digər ölkələrin Ukrayna ilə birgə atəşkəs planı üzərində işlədiklərini bildirən Starmer qeyd edib ki, bu plan ABŞ-la da müzakirə olunacaq və müttəfiqlər tərəfindən birlikdə icra ediləcək.

O qeyd edib ki, sammitdə 4 əsas məsələ razılaşdırılıb. Birincisi, müharibə bitənə qədər Kiyevə hərbi dəstək göstəriləcək, eyni zamanda Rusiyaya qarşı iqtisadi təzyiqlər artırılacaq. İkincisi, Ukraynanın suverenliyi təmin olunmalıdır. Hər hansı sülh razılaşması Kiyevin təhlükəsizliyini və suverenliyini qorumalı, Ukrayna müzakirələrin tamhüquqlu iştirakçısı olmalıdır. Üçüncüsü, Avropa Rusiyanın Ukraynaya qarşı yeni hücumlarını əngəlləmək üçün tədbirlər görəcək. Dördüncüsü isə Ukraynanın müdafiəsi və sülhün təmin olunması üçün xüsusi beynəlxalq koalisiyanın - "Könüllülər koalisiyası"nın yaradılmasıdır.

Starmer Avropa ölkələrinin Ukraynaya real dəstək göstərməli olduğunu vurğulayıb: "Avropa çətin işi görməlidir. Biz Avropanın bu məsələdə üzərinə düşəni edəcəyini təmin edəcəyik. Amma bu plan ABŞ-ın dəstəyinə ehtiyac duyur".

## Böyük Britaniya Kiyevlə 2 milyard dollarlıq saziş imzalayıb

Baş nazir onu da bildirib ki, Böyük Britaniya Ukrayna ilə Kiyevin hərbi satınalmalar, o cümlədən HHM raketləri üçün 2 milyard dollar alacağı yeni saziş imzalayıb: "Bu gün Ukraynaya Belfastda istehsal olunacaq 5 mindən çox hava hücumundan müdafiə raketi almaq üçün 1,6 milyard funt-sterlinq (2 milyard dollar - red.) istifadə etməyə imkan verən yeni iqtisadi razılaşmanı elan edirəm". Onun sözlərinə görə, bu saziş həmçinin Böyük Britaniyanın müdafiə sektorunda iş yerlərinin yaradılmasına da yol açacaq: "Bu, kritik infrastrukturun qorunması və Ukraynanın möhkəmləndirilməsi üçün həyati önəm daşıyacaq".

Beləliklə, Avropa Kiyevə hərbi dəstəyin davam etdirilməsini nəzərdə tutur. Lakin nəzərə alaq ki, Britaniya Baş nazirinin qeyd etdiyi razılaşmalar konkret hüquqi sənəd formasında imzalanmayıb. Bu da gələcəkdə yeni fikir ayrılıqlarının olmayacağına təminat vermir. Eyni zamanda, London sammiti ABŞ-ın dəstəyi olmadan Avropanın bu münaqişənin həllinə nail ola bilməyəcəyinə dəlalət edir. "Bloomberg" nəşri də Avropa rəsmilərinə istinadən məlumat yayıb ki, Böyük Britaniya və Fransa yaxın gələcəkdə Donald Trampa Ukraynada sülhməramlıların yerləşdirilməsində iştirak etməyə və təhlükəsizlik zəmanətlərini verməyə hazır olan "Avropa Plus" ölkələr qrupunun yaradılması təşəbbüsünü təqdim etmək niyyətindədir: "ABŞ-ın iki uzunmüddətli müttəfiqləri Britaniya və Fransa yaxın günlərdə Trampın dəstəyini qazanmaq üçün ona Aİ-yə daxil olmayan dövlətlərin, o cümlədən Kanadanın da daxil olduğu "Avropa Plus" qrupunu təqdim etmək niyyətindədir".

**N.BAYRAMLI**

# Dünyanın yeni rəqəmsal paytaxtı

## Tramp ABŞ-ı virtual pul dünyasının mərkəzinə çevirmək iddiasındadır

ABŞ Prezidenti Donald Tramp ölkənin kriptovalyuta ehtiyatının yaradılacağını elan edib. Bu ehtiyata "Bitcoin", "Ethereum", "Solana" (SOL), "Ripple" şirkətinin XRP-si, "Cardano" (ADA) və digər "qiymətli" rəqəmsal aktivlər daxil ediləcək. Tramp bildirib ki, ABŞ-ın kriptoehtiyatı bu rəqəmsal sənayenin Bayden administrasiyası dövründəki enişini aradan qaldıracaq və korrupsiya hücumları nəticəsində itmiş nüfuzunu yenidən bərpa edəcək, nəticədə əhəmiyyətli yüksəliş dövrü başlayacaq.

"Mən ABŞ-ın dünyanın kriptopaytaxtı olmasını təmin edəcəyəm", deyə iddialı bəyanat verən Trampın bu açıqlamasından sonra rəqəmsal valyuta bazarlarında yenidən çaxnaşmalar qeydə alınıb, "Bitcoin", "Ethereum" və digər "qiymətli" valyutalar da daxil olmaqla əksər kriptopullar kəskin bahalaşıb. Belə ki, ADA indeksi 60 faiz, XRP 33 faiz, 25 faiz artıb. Digər kripovalyutaların indeksi isə 10-13 faiz civarında dəyər qazanıb. Ən bahalı kriptovalyuta olan "Bitcoin"in qiyməti isə "CoinMarketCap" platformasında 3 fazidən çox bahalaşaraq 98 min dollar təşkil edib. "Bitcoin"in bahalaşması onun bazar dəyərini və əməliyyatlar üzrə dövriyyəsini də yüksəldib, təkcə fevralın son iki həftəsində dövriyyədə olan bu virtual pulların bazar payı 10 milyard dollardan çox artaraq ümumilikdə 2 trilyon dollara yaxınlaşıb. ABŞ-ın bazar araşdırmaçıları bu valyutanın yaxın bir neçə gündə 100 min dolları ötəcəyini istisna etmirlər.

## Tramp kriptovalyutadan 1 milyard dollar qazanıb

D.Trampın ABŞ-ı kriptovalyuta paytaxtı elan etməsi dünyanın bir nömrəli iqtisadiyyatı olan superdövlətin ali hakimiyyət himayəsi altında qlobal maliyyə sistemində sıçrayışlı böyük dəyişikliklərin baş verəcəyinin anonsudur. Əslində bu dəyişikliklər 15-20 il əvvəl başlasa da, artıq tamamilə yeni mərhələyə qədəm qoyan virtual pul dünyasının miqyasının geniş xarakter aldığını göstərir. ABŞ-ın dövlət başçısı dünya sənayesinin ahəngini kriptovalyuta sənayesinə fokuslamaqla öz ətrafındakı iri maliyyəçilərlə birlikdə yeni pul imperiyası qurmaq niyyətindədir. Məsələ ondadır ki, kriptovalyuta bazarı əvvəlki situasiyalarda daha çox spekulyasiyalarla idarə olunurdusa, Trampın güclü dəstəyi ilə blokçeyn texnologiyaları maliyyə sistemində öz real yerini alaraq möhkəmlənir və maliyyə rəqabətində öz həqiqi gücünü nümayiş etdirir. Trampın özü blokçeyn bazarında birbaşa investor kimi iştirak etməsi və kriptovalyuta əməliyyatlarından fevral ayında 1 milyard dollar gəlir əldə etməsi bu bazara inamlı investorların qoşulmasının da sürətləndirir. ABŞ Prezidentinin kritomeneceri "Coinbase" şirkətinin direktoru Conor Groganın sözlərinə görə, Tramp 16 milyard dollar dəyərində token (rəqəmsal kupon) saxlaması səhmdarları ruhlandırır və bu səbəbdən "Bitcoin"in mənfəət marjasının daha da yüksələcəyi istisna deyil.




## İri səhmdarlar rəqəmsal kuponlar üçün...

Blokçeyn texnologiyaları üzrə qlobal ekspertlər hesab edirlər ki, 2025-ci ildə bu sahənin potensialı özünü real olaraq göstərəcək və dünya maliyyə sisteminə kəskin təsirləri olacaq. Kriptovalyuta bazarının 2025-ci ildə böyüməsi və təsiri bu sənayenin maliyyə sektorunda aparıcı rolunu artıracaq. Bu isə bazara institusional investorların gəlməsinə, likvidlik və sabitliyin yüksəldilməsinə imkan verəcək.

Bu baxımdan, qarşıdakı dövrdə "Bitcoin"in qiymətinin artması gözləniləndir. Eyni zamanda, digər kriptovalyutaların da yeni bazarı açılacaq. Bu proses qlobal iqtisadiyyatın digər sahələrində - daşınmaz əmlak, əmtəə və xammal bazarlarında da tokenləşməni genişləndirəcək və iri səhmdarlar öz maliyyəsini rəqəmsal kuponlara investisiya edəcək. Digər bir məqam kriptovalyutaların ödəniş alətinə çevrilməsi ehtimalının gerçəkləşməsidir. Kriptovalyutalar, o cümlədən "Bitcoin" indiyə qədər investisiya aləti kimi istifadə olunurdusa, Trampın mövcud addımlarından sonra ABŞ-ın timsalında ödəniş sistemləri arxitekturasını formalaşdıra bilər. Yəni, "Bitcoin" "Mastercard", "Viza", "SWIFT" ödəniş mübadilə sisteminə inteqrasiya edilə bilər. Bir sözlə, artıq "Bitcoin" həm yığım, həm də tədavül vasitəsinə çevrilməklə qlobal maliyyə sistemini dəyişdirməkdədir.

**E.CƏFƏRLİ**

# Müqavilə imzalanmadı

## Zelenski ümid edir, Tramp isə...

**Kiyev ilə Vaşinqton arasında hələ fevralın 25-də Ukraynanın nadir torpaq minerallarının çıxarılmasına dair ikitərəfli sazişin şərtləri razılaşdırılsa da, müqavilə imzalanmadı. Bu barədə Ağ Evdən "Reuters" agentliyinə bildirilib. Qeyd olunub ki, ABŞ prezidenti razılığa gəlməyi istisna etmir, sadəcə, Ukrayna konstruktiv danışıqlara hazır olmalıdır.**
**Qeyd edək ki, Ukrayna liderinin ABŞ-a səfərinin səbəbi kimi nadir torpaq metalları üzrə sazişin imzalanması göstərilirdi. ABŞ-ın maliyyə naziri Skott Bessent Ukrayna ilə iqtisadi tərəfdaşlığı müzakirə etmək üçün fevralın 13-də Kiyevə gəlmişdi və "tərəfdaşlıq sazişi"nin ilk layihəsi rəsmi Kiyevə təqdim olunmuşdu. Müqavilə ilə bağlı müəyyən müzakirələr aparılsa da, sonradan bir sıra şərtlər haqda razılıq əldə edildi.**

## Vəziyyət gərginləşdi...

Lakin Tramp-Zelenski görüşü zamanı liderlər yüksəldilmiş tonlardan istifadə edərək Rusiyanın Ukraynadakı müharibəsini və ona son qoymaq imkanlarını müzakirə etməyə başlayıblar. Vladimir Zelenski təhlükəsizlik zəmanəti olmadan atəşkəslə razılaşmaqdan imtina etdi və Donald Tramp onu ABŞ-ın mövqeyinə hörmətsizlikdə və nankorluqda ittiham etdi. ABŞ prezidenti Zelenskinin ritorikasını və davranışını hörmətsizlik kimi qəbul edib. "Fox News" xəbər verir ki, Tramp Zelenskidən Ağ Evi tərk etməsini istəyib. Kanalın müxbiri Sandra Smit "Telegram" kanalında yazıb: "Prezident Tramp Zelenskidən getməsini xahiş edib...".



## Fərqli ssenarilər...

Görüşlə bağlı beynəlxalq ekspertlər, xüsusilə Qərb siyasətçiləri birmənalı fikirdə deyillər. Bir qism mübahisələrin arxasında başqa məsələlərin dayandığına işarə vurur - belə ki, bu müqavilə həm də atəşkəsə aparan yol kimi qeyd olunurdu. Bildirilir ki, Ukrayna prezidenti ABŞ-ın atəşkəs şərtləri ilə razı olmadığı üçün müqavilə məsələsi də reallaşmayıb. Ukrayna prezidentinin London səfəri əsnasında ölkəsinin ərazi bütövlüyü məsələsi ilə bağlı bəyanatı da deyilənləri təsdiqləyir. Həm də Ukrayna ABŞ-ın şərtləri əsasında atəşkəsə imza atacağı təqdirdə Aİnin maraqlarını tam şəkildə zərbə altına qoymuş olacaqdı - bu isə, daha böyük qalmaqala aparırdı. Çünki Moskva ilə Kiyev arasındakı atəşkəsin növbəti mərhələsində Rusiyaya qarşı tətbiq olunan iqtisadi sanksiya mühitinin yumşaldılması dayanacaqdı. Ukrayna isə dərk edir ki, ABŞ ilə yanaşı, bu müharibə dövründə ona himayədarlıq etmiş Aİ-yə tam arxa çevirmək mümkün deyil.

Maraqlıdır ki, həddindən artıq gərgin davam etmiş Tramp-Zelenski görüşünü "siyasi şou" adlandıranlar da var. Məsələyə iqtisadi prizmadan baxan bu kəsimin fikrincə, yaranan gərginlik daha çox iqtisadi gəlir əldə etməyə hesablanıb. Bu mənada, ABŞ-ın yanaşmasını dəyərləndirərkən, Vaşinqtonun mineralların istismarının 100 fazini əldə etmək arzusu önə çıxarılır. Ukrayna isə buna razı deyil - Vaşinqton əlində olan ən əsas üstünlükdən istifadə edir. Əgər Ağ Ev təminatdan tam imtina edərsə, Ukraynanı olduqca çətin bir dövr gözləyəcək və hətta Trampın da bildirdiyi kimi, Ukrayna daha böyük miqyasda torpaq belə itirə bilər. ABŞ bu məqamı bildiyi üçün Ukraynanı sıxışdırır - hətta Aİ ilə əməkdaşlıq Vaşinqton üçün hər hansı "problem" yarada bilməz. Çünki Aİ-nin Ukrayna üçün nəzərdə tutduğu yardım fondu ABŞ-ın verdiyi pulların müqabilində bir neçə dəfə azdır...

## Müqavilə bərpa olunacaqmı - Zelenski razıdır, Tramp isə...

Amma müqavilə ilə bağlı ümidlər hələ ki, yekunlaşmayıb. Məsələn, Zelenski ABŞ-a verdiyi dəstəyə görə təşəkkür edib və X sosial şəbəkəsində Ağ Evdə Donald Trampla mübahisə etdikdən sonra yazıb: "Sağ olun, Amerika, dəstəyinizə görə təşəkkür edirəm, bu səfərə görə təşəkkür edirəm. ABŞ prezidenti Donald Trampa, Konqresə və Amerika xalqına təşəkkür edirəm. Ukraynanın ədalətli və davamlı sülhə ehtiyacı var və biz bunun üçün çalışırıq".

Zelenski martın 2-də Londonda keçirilən Avropa sammitindən sonra BBC jurnalistlərinə müsahibəsində deyib ki, Ukrayna hələ də mineral ehtiyatlar üzrə ABŞ-la müqavilə imzalamağa və Vaşinqtonla konstruktiv dialoq aparmağa hazırdır. "Reuters" isə yazıb ki, Zelenski ABŞ-la faydalı qazıntılar üzrə saziş imzalamağa hazır olduğunu və ABŞ-ın da bunu etməyə hazır olacağına inandığını söyləyib. Ukrayna prezidenti Amerika lideri Donald Trampla münasibətlərini xilas etmək şansının olduğunu düşünür. ABŞ-ın maliyyə naziri Skott Bessent isə bəyan edib ki, Ukrayna ilə nadir torpaq metalları üzrə sazişin imzalanması məsələsi hazırda nəzərdən keçirilmir. O, Zelenskinin Ukrayna və ABŞ arasında müqaviləni "partlatdığını" vurğulayıb.

Donald Tramp isə özünün "Truth" sosial şəbəkəsində yazıb: "Mən belə qənaətə gəldim ki, prezident Zelenski sülhə hazır deyil. O hiss edir ki, bizim iştirakımız danışıqlarda ona böyük üstünlük verir. Mən üstünlükləri istəmirəm, SÜLH istəyirəm. O, sevimli Oval ofisində Amerika Birləşmiş Ştatlarına hörmətsizlik edib. O, sülhə hazır olanda geri qayıda bilər".

Bu arada ABŞ Dövlət Departamenti Ukrayna prezidenti Vladimir Zelenskinin vəziyyəti dəyişə biləcəyini bildirib. Dövlət Departamentinin sözçüsü Tammi Bryus "Fox Business"-ə deyib ki, "Prezident Zelenski, məncə, tərəddüd edə bilər, lakin onun hər şeyi dəyişdirmək şansı var".

Sonradan isə Tramp Zelenski ilə yaxın gələcəkdə dialoqun bərpası ehtimalını rədd edib. Oval ofis qalmaqalından sonra ilk dəfə jurnalistlərə açıqlama verən Tramp "O, dərhal geri qayıtmaq istəyir. Amma bu, mənim üçün kifayət etmir" deyib.

**P.İSMAYILOV**

# Avropa "yenidənqurma" yolunda...

## Birinci iş hərbi inkişaf planıdır - fon der Leyenin "çıxış yolu"

## Avropa ABŞ-dan nə qədər və necə geri qalır?

**Martın 2-də baş tutan London sammiti Aİ üçün xüsusi əhəmiyyət kəsb edir. Dünənə qədər proseslərin arxasınca gedən Avropa artıq özünün müstəqil siyasi və hərbi xəttini yaratmağa çalışır. Bunun üçün isə, "köhnə qitə" ilk növbədə özünün hərbi potensialını inkişaf etdirməlidir. Qeyd edək ki, Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyen London sammitindəki müzakirələr zamanı deyib ki, Ukraynanın təhlükəsizlik zəmanətinə ehtiyacı var. AK rəhbəri Avropanı yenidən silahlandırmaqla bağlı çağırış edib. "Təcili olaraq Avropanı yenidən silahlandırmaq məcburiyyətindəyik",- deyə o, bildirib.**

## Yeni plan...

Sammit zamanı fon der Leyen yaxın günlərdə plan təqdim ediləcəyini bildirib. O, Avropa ölkələrinin liderləri ilə danışıqları "yaxşı və səmimi müzakirə" adlandırıb. Fon der Leyen deyib ki, müdafiə sahəsinə sərmayələri artırmaq vacibdir: "Bu, Avropa Birliyinin təhlükəsizliyi üçündür. Yaşadığımız geostrateji mühitdə biz ən çətin vəziyyətə hazırlaşmalıyıq və buna görə də güclənməliyik".

Fon der Leyen müdafiə xərclərini artırmaq üçün vergi siyasətində mümkün dəyişiklikdən də danışıb. "Aİ dövlətləri müdafiə xərclərini kəskin şəkildə artırmaq üçün daha çox maliyyəyə ehtiyac duyurlar" dedi. Onun sözlərinə görə, Avropa Komissiyası martın 6-da Brüsseldə keçiriləcək Aİ sammitində müvafiq plan təklif ediləcək.

İndiyə qədər özünün xüsusi müdafiə immuniteti yaradılmayan, NATO-nun çətiri altında qorunan Avropanın birdən-birə təhlükəsizliyinin təminինə tərəf "boylanması" əbəs deyil. Son baş verənlərin fonunda ABŞ-ın Ukrayna ilə bağlı fərqli planlarının olması meydana çıxdı. Başqa sözlə, ABŞ-ın bu məsələdə tutduğu mövqenin müəyyən mənada "sürüşkənliyi" üzə çıxdı. Vaşinqtonun artıq bütün məsələlərə iqtisadi prizmadan baxması sirr deyil - belə olan təqdirdə, Ağ Ev Avropanın təhlükəsizliyi üçün niyə milyardlar xərclədiyinin hesabatını da soruşa bilər.

Bütün mənalarda "forsmajor" situasiyalara isə indidən hazırlaşmaq gərəkir. Təbii ki, Avropa kontingenti Rusiya ilə müharibə etmək fikrindən çox uzaqdır - hazırkı "addımlar" sadəcə Moskvanı Ukrayna ilə daha güzəştli sülhə meyilləndirməyə hesablanıb. Nəzərə alınmalıdır ki, özünün təhlükəsizliyinin təmini üçün planlar quran Avropanın hərbi potensialı aşağıdır. Bunu real faktlarla da görmək olar. Məsələn, Avropanın iki ölkəsinin müqayisəsində bu faktlara nəzər yetirək:

- Fransa ordusu Avropanın ən böyük və güclü ordularından biridir. Bu ölkə 2024-cü il üçün müdafiə və hərbi xərclərə 50,5 milyard avro vəsait ayırılıb. Bu isə 2023-cü ildə ayrılan müvafiq xərcdən az fərqlidir. Son məlumatlara görə, ölkənin 141 min aktiv əsgəri var. Hava qüvvələri



972 təyyarə və helikopterdən ibarətdir. Dəniz qüvvələri isə 10 döyüş, 15 patrul gəmisi, 1 təyyarədaşıyan gəmi, 9 sualtı qayıq və 11 mina gəmisindən ibarətdir. Fransa həmçinin az da olsa, nüvə gücünə malikdir.

- Almaniya da 2024-cü ildə ordusu üçün 55 milyard avro büdcə ayırıb. Silahlı qüvvələrində 62 min nəfər xidmət edir. Hava qüvvələri 133 döyüş təyyarəsi və 318 helikopterdən ibarətdir. Quru qüvvələri 295 tank və 80 minə yaxın zirehli maşına sahibdir. Dəniz qüvvələri isə 64 gəmidən ibarətdir.

## Real müqayisə - rəqəmlər hər şeyi deyir...

Müqayisə üçün isə Avropanın özünə təhdid bildiyi Rusiyaya nəzər salaq:

- Son illərdə müxtəlif dəyişikliklərə məruz qalsa da, 2024-cü ilin sentyabr ayında Vladimir Putin Rusiya Silahlı Qüvvələrinin şəxsi heyətinin 180 min nəfər artırılaraq 1,5 milyon əsgərə çatdırılması barədə fərman imzalayıb. Bu artım Rusiyanı dünyanın ikinci ən böyük ordusuna sahib ölkə edir, yalnız Çindən geri qalır. Hərbi texnika və təchizata gəldikdə isə, Ukrayna ilə davam edən münaqişə nəticəsində Rusiya ordusu əhəmiyyətli texnika itkiləri ilə üzləşib. Bununla belə döyüşə yararlı təyyarələri minə yaxındır. Eyni zamanda, nüvə potensialına görə də, ilk yerdə qərarlaqşıb. Ən əhəmiyyətlisi isə, bu raketlər bütün Avropanı əhatə edəcək mənzilə sahibdir. Ümumi Qiymətləndirmədə "Global Firepower" indeksinə əsasən, Rusiya hərbi potensialına görə dünyada ikinci yerdə qərarlaşır. Bu reytinq hərbi vahidlərin sayı, logistik imkanlar və maliyyə vəziyyəti kimi 60-dan çox faktoru nəzərə alır.

Və nəhayət ABŞ-ın hərbi xərclərə ayırdığı büdcəyə baxaq:

- ABŞ-ın 2024-cü il üçün hərbi büdcəsi 886 milyard dollar olaraq təsdiqlənib. 2025-ci il üçün isə hərbi büdcə təxminən 895 milyard dollar təşkil edir.

## İqtisadi böhranın içində...

Nəhayət, iqtisadi faktor... "Köhnə qitə" açıq iqtisadi böhran yaşayır. Avropa üçün strateji sahə sayılan kənd təsərrüfatı sahəsi ağır vəziyyətdədir. Deməli olar ki, bütün ölkələrin fermerləri açıq etiraz aksiyaları keçirirlər. Ağır sənaye adı kimi ağır günlər yaşayır - Avropanın aparıcı dövlətləri, xüsusən də Almaniya və Fransa bu səbəbdən bir çox sənaye müəssisələrini bağlamaq və ya başqa ölkələrə köçürmək qərarı veriblər. Yüngül sənayenin vəziyyəti də yaxşı deyil - şərqdən qərbə doğru daha ucuz yüngül sənaye məhsullarının ixracı bu sahənin də çətin günlər keçirdiyini deməyə əsas verir. Digər sahələrdə də vəziyyət analoji haldadır - artıq üç ildir davam edən Ukrayna-Rusiya müharibəsi fonunda xammal çatışmazlığı yaşayan Avropa özünün "embarqo planı"nın əsirinə çevrilib. Avropada iqtisadi geriləmə ən yüksək faizlərlə müşayiət edilməkdədir. Hərbi gücü artırmaq üçün isə güclü iqtisadiyyat gərəkir. Avropa özünün hərbi potensialını inkişaf etdirmək üçün ilk növbədə güclü iqtisadiyyat qurmalıdır - hərbi asılılıqdan xilas olmaqdan öncə, iqtisadi asılılıqdan yaxa qurtarmalıdır...

**P.SADAYOĞLU**

## Silah istehsalı aşağıdır...

Beləliklə, Avropanın hərbi potensialının öz rəqibindən və imtina etməyə hazırlaşdığı müttəfiqindən geri qaldığının fakt və rəqəmlərlə şahidi oluruq. Başqa bir meyar isə Avropanın silah ixracı və idxalı ilə bağlıdır. ABŞ-ın "hərbi asılılığından" azad olmaq istəyən Avropanın silah satışından gəliri ikincinin nisbətində yarıdan da aşağıdır. Belə ki, 2023-cü ildəki "gəlirlərə" diqqət yetirsək (2024-cü illə bağlı statistika hələ açıqlanmayıb), dünyanın ən yaxşı 100 silah istehsalçısı siyahısına daxil olan 41 ABŞ şirkəti 317 milyard dollar gəlir əldə edib. Hesabat ilində Avropada yerləşən ilk 100 şirkət sırasına düşmüş (Rusiya istisna olmaqla) 27 şirkətin silah satışından əldə etdiyi ümumi gəlir 133 milyard dollar təşkil edib. Bu, 2022-ci illə müqayisədə cəmisi 0,2 faiz çoxdur. Deməli ki, "köhnə qitə" özünün müstəqil təhlükəsizlik arxitekturasını yaratmaq istəyirsə, hazırkı hərbi xərclərini ən azı 2 dəfə artırmalı olacaq. Əgər bu gün Avropanın ən böyük 15 NATO üzvü təşkilatın hərbi xərclərinin müəyyən faizini ödəyirsə, müstəqil hərbi struktur formalaşdıracağı təqdirdə bu maliyyə daha da böyüyəcək.

Avropa hərbi kadr islahatına görə də ABŞ-dan və Rusiyadan geri qalır. Rusiyanın hərbi kadr potensialı əsasən daxili təhsil sistemi tərəfindən hazırlanır. Ötən illər ərzində Avropanın təhlükəsizliyinə cavabdeh olan qoşunlarda xidmət edən avropalı zabitlərin əksəriyyəti isə ABŞ-da təhsil alıb. Bu isə qitə üçün bir çox çətinliklər yaradır. Yerli kadr potensialını artırmaq üçün Avropa ilk növbədə özünün "hərbi təhsil" kontentini və proqramını formalaşdırmalıdır. Düzdür, epizodik olaraq bu təmayüllü hərbi məktəblər mövcuddur, amma onların da hazırlıq proqramları ABŞ təcrübəsinə əsaslanır.

Bizim müsahib

# Məqsədimiz sərnişinlərin təhlükəsizliyini təmin etməkdir

## Müsahibimiz təlimatçı - təyyarə bələdçisi Maynisə Həsənovadır



**- Maynisə xanım, niyə məhz bu sənəti seçdiniz?**

- Aviasiya mənim üçün bir həyat tərzidir, hansı ki özündə yüksək məsuliyyət, professionallıq və komandada işləmək bacarığını birləşdirir. Həmişə sadəcə səyahət etmək yox, səyahətlərin insanlar üçün təhlükəsiz və komfortlu keçməsini istəmişəm, təyyarə bələdçisinin işi, sərnişinlərə kömək etmək və qeyri-standart hallarda çıxış yollarını göstərməkdir.

**- Maraqlıdır, həftədə ortalama neçə saat uçursunuz?**

- Bizim orta aylıq uçuşumuz 50 saatdan - 80 saata qədər olur. Bu, işimizin çox kiçik bir hissəsidir. Bundan əlavə mütəmadi olaraq hazırlıqlar keçirik, brifinqdə iştirak edirik, qəza prosedurlarının təlimlərində iştirak edirik və bunların hamısı kvalifikasiyamızı daim yüksək səviyyədə saxlamaqa kömək edir.

Bu peşə tam fədakarlıq tələb edir, ona görə də hər dəqiqə bu peşədə maksimum səmərəliliklə istifadə olunur.

**- Təyyarədə, göydə həddən artıq vaxt keçirmək sağlamlığınıza necə təsir edir?**

- Saat qurşaqlarının tez-tez dəyişməsi və uzun uçuşlar sağlamlığa xüsusi diqqət yetirməyi tələb edir. Təbii ki, buna görə biz ciddi istirahət rejiminə riayət edirik, fiziki hazırlığımızı qoruyuruq və qidalanmamıza nəzarət edirik. Aviaşirkət də bizə qayğı göstərir, uçuşlardan sonra istirahət üçün hər cür şərait yaradır.

**- Təyyarə hədəf mənzilə çatdıqdan sonra getdiyiniz ölkələri gəzmək üçün vaxtınız olurmu?**

- Hamısı cədvəldən asılıdır. Bəzən uçuşlar arasında şəhəri gəzmək üçün vaxt olur, lakin ekipajın əsas vəzifəsi növbəti uçuşa hazır olmaqdır. Ona görə də uzun dayanacaqlarda belə, sərnişinlərimizin təhlükəsizliyini və rahatlığını təmin etmək üçün rejimə riayət edirik, peşəkar formamızı qoruyuruq.

**- İnsanlar elə düşünürlər ki, işinizlə əlaqədar dünyanın hər yerinə vizasız səyahət edə bilirsiniz. Bu nə dərəcədə doğrudur?**

- İş vəzifələrimizi yerinə yetirmək üçün xüsusi icazələrimiz var, lakin şəxsi səyahətlər üçün ümumi viza qaydaları tətbiq olunur. Bununla belə, Azərbaycan Hava Yollarında işləmək xaricə daha tez-tez səyahət etmək və müxtəlif ölkələrin mədəniyyətini daha yaxşı başa düşmək imkanı verir.

**- Bəs təyyarədə təhlükəli vəziyyətlər zamanı necə soyuqqanlı qalmağı bacara bilirsiniz?**

- Soyuqqanlılıq və özgüvənlilik keçirilən hazırlıqların nəticəsidir. Biz mütəmadi olaraq təhlükəsizlik, qəza - xilasetmə prosedurları, ilkin tibbi yardımın göstərilməsi, konflikt vəziyyətlərin aradan qaldırılması üzrə təlimlərdən keçirik, ştatdankənar situasiya zamanı bizim dəqiq hərəkət alqoritmimiz var ki, biz bunları hər zaman maksimum dərəcədə təkrar edib hazırlıqlı oluruq. Ən birinci məqsədimiz sərnişinlərimizin təhlükəsizliyini təmin etməkdir. Bu da bizə hər zaman soyuqqanlığımızı saxlamağa kömək edir.

**- Bu sənətin çətin tərəflərindən danışardınız...**

- Dəyişkən iş qrafiki, yüksək təzyiq altında işləmək halları, gecə uçuşları və s. Eyni zamanda bayramlarda çox vaxt evdən, ailədən uzaqda oluruq. Bundan əlavə, biz daim insanlarla ünsiyyətdə oluruq. Qeyd edim ki, bu bir tərəfdən işimizi unikallaşdırır, yəni inkişaf etməyimizə kömək edir.

**- Məlum qəzadan sonra insanlar bu peşəni həyata keçirən insanlara qəhrəman kimi yanaşırlar...**

- Biz məsuliyyətimizi dərk edirik. Fövqəladə hallarda insanların həyatına təsir edən qərarlar verən ekipajdır. Cəld və panik olmadan hərəkət etməyə öyrəşmişik. Sözügedən hadisədən sonra sərnişinlər bizim tərəfimizdən hər zaman ilk növbədə uçuşun təhlükəsizliyinə diqqət yetirməyimizə görə təşəkkürlərini bildirirlər.

**- İlk uçuşunuz haraya olub və onu necə xatırlayırsınız?**

- İlk uçuşum Bakı - İstanbul - Bakı marşrutu üzrə uçuş olub. Ən çox yadımda qalan ekipajdakı ab-hava idi: təcrübəli həmkarlarım mənə dəstək oldular, məsləhətlər verdilər, mən də təlimlər zamanı əldə etdiyim bütün bilikləri tətbiq etməyə çalışdım. Bu uçuş mənə tez qərarlar qəbul etməyi və işimdə çevik olmağı öyrətdi.

**-Sərnişinlərin təyyarədə tez-tez pozduğu qaydalar hansılardır?**

- Ən çox qayda pozuntuları mobil cihazların təyyarə rejiminə keçirilməsi zərurəti barədə elandan sonra onların istifadə edilməsidir. Elektron siqaretlər daxil olmaqla, siqaret çəkmək cəhdləri də tez-tez olur.

Bizim vəzifəmiz təkcə sərnişinlərə qaydaları xatırlatmaq deyil, həm də təhlükəsizlik baxımından onlara riayət etməyin vacibliyini izah etməkdir.

**- Başqa hansı maraqlı hadisələrlə qarşılaşırsınız?**

- Təyyarə bələdçisinin işi hər gün yeni və gözlənilməz anları əhatə edir. Uçuşlarda təsirli görüşlər də olur. Bir dəfə təyyarədə bir gənc sevdiyi xanıma evlilik təklifi etmişdi. Bəzən psixoloji dəstək, uşaqları sakitləşdirmək və ya sərnişinlər arasında yaranan gərgin vəziyyətləri aradan qaldırmaq yollarını tapmaq lazımdır. Sərnişinlərə ilkin tibbi yardım göstərmək halları da olur. Bizim peşəmizdə əsas məqam istənilən şəraitə tez uyğunlaşmaq, sərnişinlərə anında kömək və təbii ki, qayğı göstərmək bacarığıdır.

**-Təyyarə bələdçisi olmaq istəyən bir gənc üçün hansı məsləhətləriniz olar?**

- Bu peşə intizam və davamlı olaraq təlimlərdən keçmək tələb edir. Əgər siz məsuliyyət götürməyə, komandada işləməyə və sərnişinlərinizlə səmimi davranmağa hazırsınızsa, bu iş sizin üçün böyük imkanlar və yollar açacaq. Ən əsası işinizi sevmək və öz peşənizdə ən yaxşısı olmağa çalışmaqdır.

***Söhbətləşdi: Havar Şəfiyeva***

# ABŞ NATO-nu tərk edərsə...

**Qərb yarımkürəsində vəziyyət gün keçdikcə dəyişir. Çətinlik təkcə Avropa qitəsindəki ayrı-ayrı dövlətlərin deyil, bu ölkələri öz çətiri altına alıb təhlükəsizliyini təmin edən NATO-nun gələcək fəaliyyətində də özünü büruzə verir. İstər ABŞ-Ukrayna, istər ABŞ-Aİ, istərsə də ABŞ-Rusiya münasibətlərində son proseslər Şimali Atlantika Alyansında da vəziyyətin əvvəlki kimi olmayacağından xəbər verir. İkinci Dünya müharibəsindən sonra əsası qoyulan və bu günə qədər davam edən vahid regional təhlükəsizlik sisteminin tarixə qovuşmaq ehtimalı güclənir. Artıq bu istiqamətdə qığılcımlar görünür. Eyni zamanda yaxın gələcəkdə Avropa məkanında ciddi təlatümlərin də baş verəcəyinin şahidi ola bilərik.**

## Senatorun çağırışı

Qeyd edək ki, Konqresdə bəzi respublikaçı senatorlar ABŞ-ın NATO-nu tərk etməsi ilə bağlı çağırışlar edirlər. Yuta ştatından olan senator Mayk Li öz “X” sosial şəbəkəsində ABŞ-ın NATO-dan çıxmasının zəruriliyini qeyd edib. Mayk Li, həmçinin “The American Conservative” jurnalı üçün yazdığı məqaləsində bildirib ki, alyansdakı Qərb ölkələri Ukraynaya hərbi personal göndərərsə, ABŞ NATO-dan çıxmalıdır: “Əgər müttəfiq qüvvələrin çəkmələri Ukrayna torpağına toxunarsa, biz NATO-dan tamamilə çıxmalıyıq,” - deyə Amerikalı senator vurğulayıb ki, Avropanın ABŞ-ı “nüvə eskalasiyası riskinə” itələməyə haqqı yoxdur və Birləşmiş Ştatlar alyansda özünün əsas milli maraqlarına uyğun hərəkət etməlidir. O xatırladıb ki, nüvə silahı olan düşmənin sərhədlərinin yaxınlığında alyansın genişlənməsi təhlükəli oyundur.

ABŞ prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Riçard Qrenellin öz sosial şəbəkə hesabında senatorun çağırışına qoşulub və Avropa ölkələrinin NATO-ya kifayət qədər töhfə vermədiyini əsas gətirərək ABŞ-ın alyansın üzvlüyündən çıxmasının vaxtının çatdığını yazıb.

Xatırladaq ki, Prezident Tramp da birinci hakimiyyəti dövründə, o cümlədən 2024-cü ildə prezident seçkiləri kampaniyasındakı çıxışlarında dəfələrlə NATO-nun müdafiəsinə ən çox maliyyə xərcini ABŞ-ın çəkdiyini və Avropa ölkələrinin alyansa dəstəyinin yetərli olmadığını bildirirdi - o, açıq şəkildə bəyan edirdi ki, bu, onu NATO ilə bağlı sərt siyasət yürütməyə vadar edəcək.

Bu arada “Washington Post” qəzeti müəyyən mənbələrə istinadən məlumat verib ki, Tramp 20 min Amerika əsgərinin Avropadan çıxarılmasına göstəriş verə bilər.

## NATO-dakı xərc bölgüsü

ABŞ hər il NATO-ya ÜDM-in 3,5 faizini, yəni 750 milyard dollar civarında vəsait xərcləyir. Amma Avropa ölkələrinin NATO-nun müdafiəsinə xərclərində ciddi fərqlər var. Polşa ÜDM-in 3.9 %, Yunanıstan ÜDM-in 3.2 %, Latviya və Estoniya ÜDM-nun 3%, Litva 2.5% və 2.99% arası, Almaniya, Fransa, Britaniya, Çexiya, Slovakiya, Macarıstan, Rumıniya, Bolqarıstan, Niderland və Skandinaviya ölkələri ÜDM-nun 2% və 2.49 % arası, İspaniya, Portuqaliya, İtaliya və Belçika ÜDM-nun 2 %-dən aşağı vəsait xərcləyir.




## Ukrayna amili

Trampın NATO-ya mənfi münasibət sərgiləməsinin digər əsas səbəbi Ukrayna amilidir. Politoloq Tural İsmayılov “Yeni Azərbaycan” qəzetinə şərhində qeyd edib ki, Aİ-nin Ukrayna siyasəti Vaşinqtonu qəzəbləndirir: “Avropa ölkələri Ukraynada müharibənin davam etməsində maraqlıdırlar. Məhz buna görə də onlar Ukraynaya hərbi və maliyyə yardımlarını davam etdirirlər. Tramp isə bunu məqbul hesab etmir. Tramp hesab edir ki, Aİ-nin Ukraynanı Rusiya ilə müharibənin davam etməsinə sövq etməsi kökündən yalnışdır. Əslinə baxanda, Ağ Evin rəhbəri öz mövqeyində haqlıdır. Ona görə ki, hazırda, eləcə də yaxın gələcəkdə Ukraynanın rus qoşunlarını öz ərazisindən tamamilə çıxarmaq perspektivi yoxdur. Aİ-nin bu məsələdə təkid etməsi Trampın NATO-ya münasibətinin dəyişməsinə səbəb olub”.

## NATO dağıla bilər?

Tramp administrasiyasının NATO ilə bağlı mövqeyi, o cümlədən respublikaçı senatorların bəyanatları Avropada çox ciddi narahatlıq yaradıb. Siyasi texnoloqların qənaətinə görə, bu günə qədər özlərinin və böyük bir məkanın təhlükəsizliyinin təminatını ABŞ-a həvalə edən Avropa ölkələri Trampın gələcək addımlarından qorxu keçirirlər və indidən özünümüdafiə haqqında düşünməyə başlayıblar. Belə demək mümkünsə, Avropada NATO-nun dağılması kabusu dolaşır. Sözsüz ki, ABŞ-ın NATO-nun üzvlüyündən çıxması ciddi təlatümlərə səbəb olacaq: Birincisi, ABŞ öz qoşunlarını Avropadan çıxaracaq və məkanda bütün hərbi bazalarının fəaliyyətinə xitam verəcək. Vaşinqton əsasən Sakit okean, Arktika və Afrikada öz hərbi-strateji və hərbi-siyasi mövqeyini möhkəmləndirəcək. İkincisi, Şimali Atlantik-Avropa təhlükəsizlik konsepsiyası öz aktuallığını itirəcək. Bu konsepsiyanın əsasının qoyulmasında, onun təməl prinsiplərinin müəyyən edilməsində məhz ABŞ əhəmiyyətli rol oynayıb. Üçüncüsü, istər “Soyuq müharibə”, istərsə də son otuz illik dövrdə NATO-nun hərbi-müdafiə, hərbi-təhlükəsizlik və hərbi təchizatının təmin olunmasında və inkişafında, xüsusilə Avropada xarici təhlükələrin qarşısının alınmasında və NATO-nun Atlantik okeanı və Arktikada qlobal güc mərkəzinə çevrilməsində birbaşa ABŞ cavabdehlik daşıyıb. Nə Kanada, nə də Qərbi Avropa ölkələri NATO-nu bu imkanlarla təmin etmək iqtidarında deyil. ABŞ-ın meydanda olmayacağı təqdirdə NATO bütün bu imkanlardan məhrum olacaq. Dördüncüsü, Kanada və Qərbi Avropa, hətta Avropa ölkələri arasında NATO-da söz sahibi olmaq uğrunda ciddi mübarizə başlayacaq. Şübhəsiz ki, onlar heç bir ortaq məxrəcə gələ bilməyəcəklər. Belə olan halda ABŞ-ın ardınca digər ölkələr də NATO-nu tərk edəcək. Nəhayət, Avropa ölkələri məcbur qalıb öz hərbi-təhlükəsizlik təşkilatını yaradacaqlar. Bütün bunlar isə NATO-nun faktiki olaraq dağılması anlamına gəlir.

***Yunis ABDULLAYEV***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Ziya LTD" MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN




# Ramazan ayı: 4-cü gününün duası

**"Alahummə qəvvini fihi əla iqaməti əmrik. Və əziqni fihi həlavətə zikrik. Və əvzi-ni fihi li-ədai şükrik. Bikərəmikə vəhfəzni fihi bihifzikə və sətrik, ya əbsərən-nazirin".**

***Tərcüməsi:***

**"İlahi, əmrlərini yerinə yetirməkdə mənə qüvvət ver, zikrinin şirinliyini mənə dadızdır. Sənə layiqincə şükür etmək üçün məni ilhamlandır. Kəraminə and verirəm, məni öz himayəndə gizlət və qoru, ey görənlərin ən bəsirətlisi!"**

# "Üskü gecəsi"



Od çərşənbəsində od rəmzi istilah daşıyır. O, yandırıb-yaxan, istilik verən məfhum kimi yox, müqəddəs, təmizləyici bir varlıq kimi təsvir edilir. "Suyun yumadığını od təmizlər" ifadəsi də buradan götürülüb. Adətə görə, Od çərşənbəsində bayram tonqalını həyət darvazasının ağzında qalayırlar. Səbəbi isə odur ki, həyətə keçən özüylə bərabər ağırlıq, pis niyyəti gətirməsin, haması elə alovda yansın, yox olsun.

Mifoloji dünyagörüş xalqın şüuraltısında hər zaman yaşayıb. Od çərşənbəsi əsə-

## Od çərşənbəsi haqqında bilmədiklərimiz...

Bu gün Novruz çərşənbələrindən ikincisi - Od çərşənbəsidir. Xalq arasında ona "üskü çərşənbə", "üskü gecəsi", "ikinci çərşənbə" və yaxud "addı çərşənbə" də deyilir. Od çərşənbəsinin qeyd edilməsi qədim insanların Günəşə, oda olan inamından irəli gəlir. Odun, tonqalın olması istilik mənasını ifadə edir və yazın gəlişi də havaların isinməsinin əsas göstəricisidir.

## Oda və Od çərşənbəsinə inam

sən, ağırlıq-uğurluğun məhv olduğu çərşənbə kimi xarakterizə olunur. Türk dünyagörüşünün mifoloji qatında mistik qüvvələrə inam hər zaman olub. Hər zaman da o qara qüvvələri məhz odun məhv edə biləcəyinə inanıblar. Od çərşənbəsi həm də, onların məhvi baxımından vacib ritual sayılıb. "Qara yerdən üstünə qonan görünməzlər var, oda ver, yandır", - deyilir, bu çərşənbədə...



Qədimdə Od çərşənbəsində başqa bir yaxşı adət də olub: Qohum-qonşular yasda olan ailənin həyətində tonqal qalayar, bununla da o ailəni yasdan çıxararmışlar.

## Qədim zamanlarda Od çərşənbəsi

Od qədim Azərbaycan xalqının təfəkkürüncə, işıqlı sabah, xeyir-bərəkət rəmzi olub. Bu çərşənbədə tonqallar daha möhtəşəm yandırılardı, alovu ruhi arınma mərhələsinin sonu hesab edərdilər. Qədim dövrlərdə Od çərşənbəsində tonqalı hündür yerdə-dağ, təpə başında qalayar, bütün el həmin tonqalın başına yığışar, odunlar yenicə alışmaya başlayanda qız-gəlin odun şərəfinə nəğmələr söyləyərmiş.

## Od çərşənbəsinin unudulmuş adətləri

Ayı oynatma - burada ayı simvolik anlamdadır, təbii ki, başqa heyvanlar da ola bilər. Bu, həm Od, həm də qarşıdakı digər iki çərşənbədə göstərilən tamaşadır. Bir adama ayı dərisindən kürk geyindirilir. Başqa bir adam onun boynuna zəncir salıb tamaşaçıların toplaşdığı meydana aparır. Burada ayı onların üzərinə atılmaqla guya, adamları qorxutmaq istəyir. Meydanda kimlərisə yamsılayır və insanların alqışını qazanır. Ayının yamsıladığı adamların arasında cütçü mütləq olmalıdır. Bu da ayılan torpağa olan münasibəti əks etdirir. Bu oyuna oxşar dəvəoynatma oyunu da var.

Açar falı: Çərşənbələrdə ürəyində niyyət tutan şəxs özü ilə açar götürüb evlərinin yanındakı yola çıxır. Yolayrıcı olan yerdə açarı sağ ayağının altına qoyub gözləyir. Yoldan ötənlərin ilk sözünü eşidib yadında saxlayır və açarı da götürərək geri qayıdır. Eşitdiyi söz xoş bir məna verirsə, yaxşı nəsə haqqındadırsa, həmin adam niyyətinin baş tutacağına inanır. Buradakı açar isə simvolik olaraq həmin niyyətin açarı deməkdir.

Alma falı: Od çərşənbəsində iki alma seçilir və onlardan birinə nişan qoyulur. Daha sonra həmin nişanı gizlədərək niyyət tutur və evdəkilərdən birinə almalardan hansınısa götürməsi deyilir. Həmin adam əgər nişanlanmış almanı götürərsə, bu niyyətin doğrulacağına işarə kimi anlaşılır. Burada istifadə olunan alma mifoloji dünyagörüşdə xoşbəxtlik, uğur bəxş edən rəmzi motivin daşıyıcısıdır.

Ümumiyyətlə, Novruz bayramı insana və bəşəriyyətə faydalı olan ən gözəl ünsürləri özündə birləşdirərək, əcdadlarımızın dünyagörüşünü, düşüncə tərzini əks etdirir. Novruz və ondan əvvəl keçirilən çərşənbələr Azərbaycan xalqının həyata, təbiətə, torpağa, zəhmətə məhəbbətinin təzahürüdür.

Xatırladaq ki, martın 11-də Yel, martın 18-də isə İlaxır çərşənbə - Torpaq çərşənbəsi olacaq. Azərbaycana yaz fəslinin daxil olması isə martın 20-si Bakı vaxtı ilə saat 13:01:25-ə təsadüf edəcək. Bu zaman gecə ilə gündüz bərabərləşir və Günəş şərqdə doğub, qərbdə batır.

***Yeganə BAYRAMOVA***

# Həm estetik qüsur, həm də ciddi xəstəlik...

Piylənmə və artıq çəki bu gün tibbin aktual problemləri sırasında yer alır. Bu problem metabolik-endokrinoloji xəstəlik olsa da, terapevt, kardioloq, nevroloq, psixiatr, qastroenteroloq, fizioterapevt və bir çox ixtisas həkimlərini maraqlandırır. Məhz artıq çəki insan orqanizmində müxtəlif xəstəliklərin yaranmasına səbəb olur. Bədəndəki artıq kalori piyə çevrilərək, depo şəklində dərialtı qat, piylik, qarın divarı və daxili orqanlarda toplanır. Sadə dildə desək, piylənmə orqanizmdə artıq yağ toplanmasıdır. Orta bədən kütləsinə malik kişilərdə piy toxuması 15-20, qadınlarda isə 25-30 faiz arasındadır.

Yeri gəlmişkən, martın 4-ü Ümumdünya Piylənmə ilə Mübarizə Günü kimi qeyd edilir. Hələ 1997-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) piylənməni qlobal xarakter alan bir epidemiya kimi qəbul edib. O vaxtdan başlayaraq həkimlər artıq çəki və piylənmə problemi haqqında əhalinin maariflənməsi sahəsində intensiv kampaniya aparır, piylənməyə aparan səbəblər və onun fəsadları haqqında məlumatlandırırlar.

## 1975-ci ildən etibarən 3 dəfəyədək artıb...

ÜST-ün apardığı tədqiqatlar göstərir ki, insanın bədən kütləsinin artması müxtəlif patalogiyaların inkişaf riskinin yüksəlməsinə səbəb olur. Ona görə də bu xəstəliyi istənilən yolla, hətta cərrahi müdaxilə yolu ilə də müalicə etmək önəmlidir. ÜST piylənməni "sağlamlıq üçün təhlükə yaradan həddindən artıq və ya anormal piy yığılması" olaraq təyin edir. Artıq çəki və piylənmə xəstəliyi bir çox metabolik, ürək-damar, ortopedik və psixiatrik pozğunluqlara səbəb ola bilər.

Təşkilatın verdiyi məlumata əsasən, 1975-ci ildən hazırkı vaxta qədər piylənmədən əziyyət çəkən xəstələrin sayı 3 dəfəyə qədər artıb. Ölkəmizdə kişilərin 50 faizi, qadınların isə 60 faizi artıq çəkidən əziyyət çəkir.

## Oturaq həyat tərzi

Araşdırmalara görə, işləyən insanlar gün ərzində təxminən 8, həftədə 40, ildə isə 2 min saatını masa arxasında çalışaraq keçirir. Ofisdə istehlak edilən düzgün olmayan qida rejimi isə piylənmə riskini daha da artırır. Mütəxəssisin sözlərinə görə fiziki fəaliyyət sağlam çəki saxlamağa kömək edir və bu da öz növbəsində immunitet sisteminin ən yaxşı şəkildə işləməsinə imkan verir. Həddindən artıq çəki və oturaq həyat tərzi isə orqanizmi bu müdafiə mexanizmindən məhrum edir - immun hüceyrələr xərçəng hüceyrələrini daha az tanıyır və onları məhvə sürükləyir.



## Valideynlərin doğru bildiyi yanlış!

**Ümumdünya Piylənmə ilə Mübarizə Günüdür**

Mövzu barədə "Yeni Azərbaycan"a danışan dietoloq Şəfa Yadigarova piylənmənin 2-ci tip diabet, ürək xəstəlikləri və bəzi xərçəng növlərinə səbəb ola biləcəyini diqqətə çatdırıb. Dietoloq qeyd edib ki, körpə uşaqların valideynləri həddən artıq çəki probleminə görə, həkimlərə tez-tez müraciət edirlər: "Belə müraciətlərin sayı artıb. Valideynlərdə belə bir fikir formalaşıb ki, uşağı yaxşı yedizdirmək lazımdır ki, o sağlam olsun. Bu, çox yanlış yanaşmadır. Əgər valideynlər övladlarının gələcəyini düşünürlərsə, onları körpəlikdən düzgün qidalanmağa öyrətməlidirlər və rejimlə qidalandırmalıdırlar".

## Oğlanlarda qadın hormonunu artırır...

Dietoloqun sözlərinə görə, yeniyetməlik çağında baş verən piylənmə həm oğlan, həm də qızlarda böyük problemlər yaradır: "Gənc qızların ana olmaq şansı azalır, oğlanlarda isə bütün funksiyalar pozulur və onlarda qadın hormonu daha aktiv olur. Kökəlmə eyni zamanda yeniyetmənin görkəminə təsir edir, daxili orqanları piylənir".

***Yeganə***

# Media nümayəndələri üçün kibertəhlükəsizlik mövzusunda təlim keçirilib




Media nümayəndələri üçün kibertəhlükəsizlik mövzusunu təşviq etmək məqsədilə təlim keçirilib. Altmışa yaxın iştirakçının qatıldığı təlim "Bakcell" və İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) birgə tərəfdaşlığı çərçivəsində baş tutub.

İl ərzində planlaşdırılan təlimlər silsiləsinin ilk sessiyasında media nümayəndələrinə rəqəmsal təhlükəsizlik sahəsində əsas risklər, kibertəhlükəsizlik insidentlərinə qarşı müdafiə üsulları və rəqəmsal medianın informasiya təhlükəsizliyindəki rolu barədə ətraflı məlumat verilib. Təlim iştirakçıları, eyni zamanda, süni intellektin kibertəhlükəsizlikdə tətbiqi, məlumatların məxfiliyi və kiberfırıldaqçılıq riskləri kimi vacib mövzular ətrafında müzakirələr aparıblar.

"Telekom sektorunda süni intellekt və innovasiyalar getdikcə daha böyük rol oynayır və biz media nümayəndələrinin bu trendləri yaxından izləməsinə kömək etməyi vacib hesab edirik. İnanırıq ki, təşkil etdiyimiz təlimlər iştirakçıların texnoloji yeniliklərə dair biliklərini artırmağa və rəqəmsal sahədəki dəyişiklikləri daha dolğun işıqlandırmalarına imkan yaradacaq", - deyə "Bakcell"in baş direktoru Klaus Müller bildirib.

İRİA-nin İdarə Heyətinin sədri Fərid Osmanov isə təlimin əhəmiyyətini vurğulayaraq bildirib: "Media cəmiyyətin yeniliklərə açıq olmasında və innovativ düşüncənin formalaşmasında mühüm rol oynayır. Son dövrlərdə kibertəhlükəsizlik və rəqəmsal ekosistemin qorunması xüsusilə aktual məsələyə çevrilib. Bu təlimlər media nümayəndələrinə yalnız rəqəmsal bacarıqlar qazandırmır, eyni zamanda, onları kibertəhlükəsizlik risklərinə qarşı daha hazırlıqlı edir. Rəqəmsallaşan dünyada medianın təhlükəsiz informasiya mühitini qoruması strateji əhəmiyyət kəsb edir."

Qeyd edək ki, "Bakcell" 2012-ci ildən etibarən hər il media nümayəndələri üçün innovasiya və texnologiyalara dair təlimlər təşkil edir. Bu il isə ilk dəfə olaraq tədbirlərini daha geniş miqyasda keçirərək, İRİA ilə birgə reallaşdırıb.

Ölkədə innovasiya mövzusunda liderliyini qoruyan hər iki qurum il ərzində mütəmadi təlimlər təşkil edəcək. Süni İntellekt, rəqəmsallaşma, kibertəhlükəsizlik, innovasiya kimi mühüm mövzuları əhatə edən proqram iştirakçılara rəqəmsal transformasiya dövründə müasir media trendlərinə uyğunlaşmaq üçün praktik biliklər qazandıracaq.

**"Bakcell" haqqında**

"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda "Bakcell" üç milyondan çox müştərini yüksək innovativ, keyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verir və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir.

"Bakcell" müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

# Məktəblimiz proqramlaşdırma olimpiadasında qızıl medal qazanıb

Azercell-in dəstəyi ilə şagirdlərimiz İT sahəsində uğurlu nəticələr göstərməyə davam edirlər

Şagirdlərimiz proqramlaşdırma üzrə beynəlxalq müsabiqələrdə ölkəmizi uğurla təmsil etməyə davam edirlər. Belə ki, 8-9 fevral 2025-ci il tarixlərində Rumıniyada IX "Info1cup" proqramlaşdırma müsabiqəsi keçirilib. 18 ölkədən 166 şagirdin qatıldığı müsabiqəyə məktəblilərimiz onlayn formatda qoşulublar.

Bakı şəhəri, 157 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi Həsən Vəliyev qızıl medal qazanıb. Eyni zamanda, Bakı Türk Anadolu liseyinin 10-cu sinif şagirdi Əhməd Qəmbərli gümüş medala, Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 10-cu sinif şagirdi Rahidil Bayramlı isə bürünc medala layiq görülüblər.




Xatırladaq ki, 2017-ci ildən etibarən məktəblilərimizin beynəlxalq fənn olimpiadalarına hazırlıq prosesi "Azercell Telekom" MMC-nin dəstəyi ilə həyata keçirilir. Bu müddət ərzində Azərbaycanın bölgə və paytaxt məktəblərində təhsil alan şagirdlərimiz fərqli yaş qrupları üzrə müxtəlif miqyaslı proqramlaşdırma müsabiqələrində ümumilikdə 90 medal qazanıblar.

# "Nar" AZTU tələbələri ilə mobil rabitə üzrə təcrübəsini paylaşmağa davam edir

Mobil rabitə sektorunda sərfəli təklifləri ilə tanınan "Nar" telekommunikasiya mütəxəssislərini hazırlamaq istiqamətində layihələrini davam etdirir. Bu yöndə növbəti "Mobil rabitənin əsasları" təlimi Azərbaycan Texniki Universitetində (AzTU) keçirildi.

Universitetin tələbələri "Nar"ın texniki heyətinin hazırladığı və keçdiyi bu təlim zamanı mobil texnologiyanın təkamülü, mobil rabitə şəbəkəsinin quruluşu, əşyaların interneti (IoT), 5-ci nəsil texnologiya, mobil rabitənin strukturu, naqilsiz transmissiya şəbəkəsi, mobil rabitədə tezliklər kimi mövzular haqqında biliklərə yiyələndilər.

"Nar" özünün korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində paytaxtda və regionda universitetlərlə əməkdaşlıq edərək mobil rabitə sahəsinin yerli peşəkarlarını hazırlamağı və onların məzun olduqdan sonra uğurlu karyera qurmasını hədəfləyir.




Bu təlimlər zamanı tələbələr "Nar"ın peşəkar texniki heyəti ilə ünsiyyətdə olaraq təkcə nəzəri biliklər deyil, həm də gələcək karyeralarının incəliklərini öyrənirlər.

"Nar"ın həyata keçirdiyi təhsilyönümlü sosial layihələr haqqında ətraflı məlumatı operatorun rəsmi saytından (nar.az) əldə edə bilərsiniz.

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4842
Sifariş: 499
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova